# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Vaqif Poeziya Günləri - Şuşada şeir və sənət bayramı



7

№ 129 (7297)

24 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

# Azərbaycan Prezidentinin çıxışı dünya mediasında




3

**Rumıniya və Bolqarıstan mediası: Prezident İlham Əliyev Rusiyadan təyyarə qəzasını rəsmi olaraq etiraf etməyi tələb edir**

# İrəvanda kilsə-Paşinyan savaşı qızışır...



4

## Köhnə dostlar fəallaşır




12

## Ənənədən gələcəyə: Valideyn olmağın yeni yolları



13

## BMT həyəcan təbili çalır - quraqlıq bəşəriyyəti təhdid edir!



16

## Tramp da Paşinyanı küncə sıxıb - Sülh Müqaviləsi yaxın görünür...



4

## Yağ bizə dağ çəkirmiş ki...



5

# Yüz əlli illik şərəfli və mütərəqqi inkişaf yolu

## Prezident İlham Əliyev: "Azərbaycan milli mətbuatı xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini verib"




Nailiyyətləri, təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə ilə dünya birliyində sayılıb-seçilən Azərbaycan cəmiyyətində söz və mətbuat azadlığı demokratiyanın meyarı və ölçüsüdür. Ölkəmizdə bu dəyərlərin mövcudluğu Azərbaycan mətbuatınıninkişafında önəmli rol oynayır. Milli mətbuatımızın təməlini qoyan ”Əkinçi” qəzetinin ilk nömrəsinin nəşr olunması tarixindən artıq 150 il ötür. Ölkə həyatında böyük əks-səda doğuran və milli mətbuatın əsasını qoyan ”Əkinçi” qəzeti Azərbaycanın ictimai həyatının ən mühüm tarixi hadisələrindən birinə çevrildi. Qəzetin naşiri, redaktoru, korrektoru Azərbaycan milli maarifçilik hərəkatının banilərindən olan, təbiətşünas alim Həsən bəy Zərdabi idi. ”Əkinçi” Azərbaycan dilində yayımlanan ilk qəzet olaraq ayda iki dəfə 300-400 tirajla yayımlanmağa başladı və dövrün təqiblərinə baxmayaraq, mübarizələrə sinə gərərək səhifələrində maarifçi və demokratik ideyaların təbliğinə yer ayırdı, ictimai, siyasi və bədii fikrin inkişafında öz sözünü demiş oldu. Qəzet xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, savadlanmasına kömək məqsədi daşıdığından böyük əhəmiyyət kəsb edirdi.

Əsrlərə qovuşacaq tarix - 22 iyul 1875-ci il mütərəqqi ideyaların carçısı və tribunası olan qəzetin ilk sayının işıq üzü gördüyü gündür.

Azərbaycan Prezidenti İlham Əliyevin media nümayəndələrinə ünvanladığı təbrikində bildirdiyi kimi, ”1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü - ”Əkinçi” qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsası qoyuldu. Həmin dövrdə bütün Qafqazda böyük əks-səda doğuran bu mühüm tarixi hadisə Azərbaycan maarifçilik hərəkatının inkişafına, milli oyanışa, milli özünüdərkin və düşüncə azadlığının formalaşmasına təkan vermiş, mütərəqqi jurnalist, publisist və ziyalı nəslin yetişməsində əhəmiyyətli rol oynamışdır”.

### ”SÖZ VƏ MƏLUMAT AZADLIĞINI MƏHDUDLAŞDIRAN SÜNİ MANEƏLƏR VƏ SENZURA ARADAN QALDIRILMIŞDIR”

Elm, maarif, mədəniyyət və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edən ”Əkinçi” qəzeti cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub. Mübariz ruhlu maarifçi ziyalılar öz amallarını gerçəkləşdirmək üçün ”Əkinçi”nin işığına toplaşmışdılar. Hünər, cəsarət tələb edən bir zamanda, təqibləri gözünə almayan ziyalının görkəmli simalar məsləkdaşı, silahdaşı oldu. Dövrün görkəmli maarifçiləri canlı xalq dilinə əsaslanan, sadə və anlaşıqlı bir dildə olan yazıları ilə oxucularının görüşünə gəlirdilər. ”Əkinçi” ilk toxumlarını səpdi və milli mətbuatımız mərhələ-mərhələ inkişaf yolu keçdi. ”Azərbaycan milli mətbuatı bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, zəmanənin qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna xidmətlər göstərmiş, azadlıq və müstəqillik kimi xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermişdir”, - deyə bildirən Azərbaycan Prezidenti qeyd edib ki, keçən əsrin sonlarında müstəqillik qazanmış Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində cəmiyyət həyatının bütün sahələrində olduğu kimi milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır: ”Həmin dövrdə media sahəsində həyata keçirilmiş köklü islahatların nəticəsi kimi medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazası təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmış, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr və senzura aradan qaldırılmışdır. Bütün bunlar Azərbaycan mediasının sürətli inkişafına təkan vermiş və onun yeni mərhələyə qədəm qoymasını təmin etmişdir”.

### ”İNFORMASİYA RESURSLARININ İQTİSADİ MÜSTƏQİLLİYİNİN GÜCLƏNDİRİLMƏSİ VƏ JURNALİSTLƏRİN SOSİAL MÜDAFİƏSİNİN YAXŞILAŞDIRILMASI MƏQSƏDİLƏ ƏSASLI İSLAHATLAR HƏYATA KEÇİRİLMİŞDİR”

Təbii ki, ictimai fikrin formalaşmasında mətbuatın rolu danılmazdır və cəmiyyətdə böyük təsir gücünə, xüsusi çəkiyə malikdir. Tarixdən bizə bəlli olan həqiqətdir ki, söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqlarından söz açmaq mümkün deyil. Uzun bir tarixi dövrə malik olan Azərbaycan milli mətbuatı müstəqillik dövründə daim diqqət və qayğı ilə əhatə olunmuşdur. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Dövlətimizin inkişafı milli informasiya resurslarından da yan keçməmiş, onun ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini daha da yüksəltmişdir. Müstəqilliyini bərpa etmiş Azərbaycanda milli mətbuatımızın inkişafı Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlıdır. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər, milli mətbuata olan münasibət və qayğısı öz nəticəsini vermişdir.

Ölkəmizdə söz azadlığı bərqərar olundu və onun əsas daşıyıcısı olan müstəqil mətbuat yaradıldı. KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər mətbuatın inkişafına yeni yollar açdı. Ulu Öndər Heydər Əliyev tərəfindən əvvəlcə hərbi senzura, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurası ləğv edildi. Belə ki, Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli ”Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olundu. Bu Fərman Kütləvi İnformasiya Vasitələrinin sürətli inkişafına ciddi təkan verdi. Azərbaycan Prezidentinin təbrikində bildirdiyi kimi, ”Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətimizin inkişafının başlıca şərtlərindən biridir. Müstəqil, güclü, günümüzün tələblərinə cavab verən, xalqın maraqlarını rəhbər tutan mətbuatın inkişafı və onun sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması hər zaman dövlətimizin qarşısında duran prioritet vəzifələrdən olmuşdur”.

### ”İNFORMASİYA MƏKANINDA QAZANDIĞIMIZ ZƏFƏR DÖYÜŞ MEYDANINDA QAZANDIĞIMIZ VƏ BU İL 5-Cİ İLDÖNÜMÜNÜ QEYD EDƏCƏYİMİZ ŞANLI ZƏFƏRİMİZİN AYRILMAZ PARÇASIDIR”

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və informasiya azadlığı, demokratiyanın inkişafına böyük diqqət ayırır. Bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında milli mətbuatın rolu əvəzsizdir. Ölkəmizdə demokratik proseslərin inkişafı, milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Bu gün ölkəmizdə media azadlığı təmin olunub, internet media inkişaf edib, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Qloballaşan dünyada dəyərlərimizi, milli maraqlarımızın və mənafelərimizin qorunmasında daha məsuliyyətlidir. Azərbaycanın 44 günlük Vətən müharibəsində həqiqətlərinin dünyaya çatdırılmasında rolunu xüsusi qeyd etməliyik. Ən qaynar nöqtələrdə biz mətbuat işçilərinin səsini eşitdik. Düzgün və qərəzsiz informasiyaları dünyaya yaymış oldular. ”Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçmişdir. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir.

Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışmışdır. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynamış, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişdir”, - deyə Azərbaycan Prezidenti bildirib ki, heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır: ”Torpaqlarımızın işğalı zamanı cəbhə bölgəsində və postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə vəzifə borcunu yerinə yetirərkən şəhid olmuş media nümayəndələrimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm. Onların şücaəti və qəhrəmanlığı heç zaman unudulmayacaq”.

### ”ÖLKƏMİZİN MÖVCUD İNKİŞAF DİNAMİKASI AZƏRBAYCAN MEDİASININ DA ÜMUMDÜNYA İNFORMASİYA ŞƏBƏKƏSİNDƏKİ ÇƏKİSİNİ ARTIRMIŞ, RƏQABƏT QABİLİYYƏTİNİ YÜKSƏLTMİŞDİR”

Bəli, erməni terroru, təcavüzkar siyasəti qələmə alındı, reportajlar vasitəsi ilə dünyaya çatdırıldı. Bu gün yeni reallıqlar yaratmış Azərbaycanın sülhsevər siyasəti, reallaşdırdığı islahatlar, mövqeyi və uğurları mətbuat vasitəsi ilə dünyaya çatdırılır. ”Bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. Ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir”, - deyə bildirən Azərbaycan Prezidenti onu da diqqətə çatdırıb ki, qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaqdır: ”Belə ki, qlobal informasiya məkanının sürətlə transformasiya olunduğu, beynəlxalq təbliğat fəaliyyətinin ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi, süni intellektin imkanlarının genişləndiyi, hibrid təhdidlərin və ”deepfake”lərin geniş vüsət aldığı müasir dövrdə bizim mediamız peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə əməl edərək, söz və məlumat azadlığından sui-istifadənin qarşısını qətiyyətlə almalı, Azərbaycanın milli maraqlarını və mənafeyini hər şeydən uca tutmalıdır.”

Dövlətimizin başçısı bildirib ki, müasir media mədəniyyətinin formalaşdırılmasında məsuliyyətli, yaradıcı, intellektual və peşəkar jurnalistikanın aparıcı rolu danılmazdır: ”Əminəm ki, Azərbaycan mediası bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması, müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir”.

Zəfər qazanmış bütöv Azərbaycanda milli mətbuatımız 150-ci ildönümünü qeyd edir. Bu təkcə mətbuat işçilərinin deyil, cəmiyyətimizin bayramıdır, çünki azad söz azad cəmiyyətin təməl daşıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan Prezidentinin çıxışı dünya mediasında

## Rumıniya və Bolqarıstan mediası: Prezident İlham Əliyev Rusiyadan təyyarə qəzasını rəsmi olaraq etiraf etməyi tələb edir

***Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü ilin dekabrında baş vermiş təyyarə qəzası ilə bağlı Rusiya Federasiyasından rəsmi etiraf tələb edib. Bu barədə Rumıniyanın və Bolqarıstanın nüfuzlu media orqanlarının yaydığı məlumatlarda bildirilib. Qeyd olunur ki, Prezident bu barədə Şuşa şəhərində keçirilən III Qlobal Media Forumunda çıxışı zamanı danışıb.***

Rumıniyanın ”Evenimentul Zilei”, ”Mediafax” media orqanları, o cümlədən AGEPRES milli xəbər agentliyi, həmçinin, Bolqarıstanın BTA xəbər agentliyi, ”24 chasa” və digər nəşrləri bildirirlər ki, dövlət başçısı Rusiyanın Azərbaycanın sərnişin təyyarəsini vurduğunu rəsmi şəkildə qəbul etməsini vacib hesab edir. Rumıniya və Bolqarıstan mətbuatı bu hadisəni geniş şəkildə işıqlandırmaqla yanaşı, Prezident İlham Əliyevin çıxışını regionda təhlükəsizlik və beynəlxalq hüquq baxımından vacib çağırış kimi qiymətləndirir.



















Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumundakı çıxışı Qazaxıstan mətbuatında geniş işıqlandırılıb. Belə ki, Azərbaycan dövlət başçısının sözləri nur.kz, aikyn.kz, arbatmedia.kz, exclusive.kz, el.kz və ulysmedia.kz kimi resurslarda dərc olunub.

Dövlət başçısına istinadla Şuşa Media Forumunun artıq ənənəvi tədbirə çevrildiyi bildirilir: ”Ümid edirəm ki, bu ənənə davam edəcək. Zaman keçdikcə qonaqlarımızın sayı artır, coğrafi əhatə genişlənir”, - deyə bu ölkənin mətbuatı Prezident İlham Əliyevdən sitat gətirir.

Qazaxıstan mətbuatı Prezident İlham Əliyevə istinadla danışıqlar prosesinin keçdiyi illər ərzində Azərbaycanın ünvanına dəfələrlə işğalı qəbul etməyə çağırışların səsləndirildiyi barədə yazıb: ”Bizim beynəlxalq hüquqa əsaslanan arqumentlərimiz - BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnaməsi, Minsk qrupunun həmsədrlərinin bu qətnamələrə səs verməri - bunların hamısı reallıqla barışmaq tələbini ehtiva edən təkəbbürlü bəyanatlar fonunda cavabsız qalırdı. Biz də qərar verdik ki, yeni reallıqlar yaradacağıq və siz onlarla barışmalı olacaqsınız. Elə də oldu”.

Bundan əlavə, nəşrlərdə dövlət başçısına istinadla BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Azərbaycanda keçirilməsinin əhəmiyyəti barədə də məlumat verilir. Bu tədbirdə iştirak etmək üçün Azərbaycana gələnlərin sayının bu mövzunun əhəmiyyətini əyani şəkildə nümayiş etdirdiyi ilə bağlı sitat gətirilir.

---



# “TRT World”un müxbiri: Azərbaycan və Ermənistan arasındakı reallıqlar beynəlxalq mediada obyektiv şəkildə əks olunmayıb

Azərbaycan uzun illər öz suveren torpaqları uğrunda mübarizə aparıb. Bu mübarizənin kökündə beynəlxalq hüququn tanıdığı ərazi bütövlüyünün təmin olunması dayanıb. Təəssüf ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarına edilən hücumlar uzun illər boyu davam edib və bu zaman mülki əhali də hədəfə alınıb. AZƏRTAC xəbər verir ki, bu sözləri 3-cü Şuşa Qlobal Media Forumu çərçivəsində keçirilən ”Media savadlılığı informasiya təhlükəsizliyinin təminatı kimi” adlı paneldə ”TRT World” telekanalının müxbiri Jaffar Hasnain deyib.

O qeyd edib ki, Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə apardığı zaman Ermənistan təkcə cəbhə xəttində deyil, həm də Azərbaycanın iri şəhərlərindən biri olan Gəncəni raket atəşinə tutub. Bu, beynəlxalq hüququn və humanitar normaların açıq şəkildə pozulmasıdır.

”Lakin çox təəssüf ki, bu reallıqlar beynəlxalq mediada birmənalı və obyektiv şəkildə əks olunmayıb. Bir sıra Qərb media qurumları aqressiv tərəfin Ermənistan olduğunu görməzlikdən gəlib və əksinə, hadisələri elə təqdim ediblər ki, sanki münaqişənin əsas məsuliyyəti Azərbaycanın üzərinə düşür.

Bu, medianın cəmiyyətləri yönləndirməkdə necə böyük gücə malik olduğunun bir daha sübut edir. Media ictimai rəyə təsir edən əsas vasitədir və bu təsir həm müsbət, həm də mənfi yöndə ola bilər. Əgər informasiya qərəzli və qeyri-dəqiq təqdim olunursa, bu, cəmiyyətlərdə yanlış təsəvvürlərin formalaşmasına səbəb olur və haqlı ilə haqsızı ayırmaq çətinləşir”, - deyə Jaffar Hasnain vurğulayıb.

O əlavə edib ki, media sahəsindəki obyektivliyin, etik jurnalistikanın və dəqiq informasiyanın təmin olunması olduqca vacibdir. Yalnız bu şəkildə informasiya müharibəsində ədalətli və dürüst mövqe təmin oluna bilər.

# İrəvanda kilsə-Paşinyan savaşı qızışır...



**İrəvanda dava getdikcə qızışır. Hakimiyyət uğrunda savaşa rusiyapərəstlərin dəstək verməsi Moskvanın da planlarına uyğundur. Əslində isə bütün proseslərin qarşıdurma səviyyəsinə çatmasında Moskvanın birbaşa əlinin olmasına kimsə şübhə etmir. Paşinyanın KTMT-dən çıxmaq fikrində israrlı olması, Zəngəzur dəhlizinə nəzarət məsələsindən Rusiyanın kənarlaşdırılması Kremlin qəzəbinə səbəb olub. Odur ki, rıçaqlar işə düşüb, Paşinyanı baş nazir kreslosunda görmək istəməyən fərqli siyasi qütblər bir araya gəliblər, daha doğrusu birləşiblər.**

Ermənistan rəhbərliyi bu prosesdə populyarlığını qurban verərək, Erməni Apostol Kilsəsinə (AAK) təzyiq göstərməkdə davam edir. Son bir ildə baş nazir Nikol Paşinyana etimad 8% azalıb, kilsəyə etimad isə 10% artıb. Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyan ÜAK rəhbərliyini katolikos II Karekini (Ktriç Nersisyan) istefaya göndərməyə çağırıb. "Biz Nersisyanı və onu dəstəkləyən qrupu kilsə əleyhinə, qeyri-qanuni kampaniyanı dayandırmağa və Nersisyanın yalan ifadələri, habelə bir sıra kilsə nazirlərinin guya terrorizm və dövlət çevrilişinin planlaşdırılmasında iştirak etməsi nəticəsində ÜAK-ın üzləşdiyi ən ciddi problemlərin aradan qaldırılmasına diqqət yetirməyə çağırırıq. Eyni zamanda, səlahiyyətli kilsə orqanlarına müraciət edirik ki, kilsə əleyhinə bütün lazımi tədbirləri görsünlər və bunun qarşısını alsınlar. proses", - Rubinyan bildirib.

Bundan əvvəl İrəvan meri Tiqran Avinyan ÜAK rəhbərliyinə hücumları dəstəkləyib. "Müəyyən şəraitə görə uzun müddət göz yumduğunuz şeyə - bu sünilik və riyakarlığa gec-tez son qoyulmalıdır", - mer deyib. Xatırladaq ki, son iki ayda Ermənistanın baş naziri Nikol Paşinyan baş keşişin subaylıq andını pozduğunu iddia edirdi - onun ən azı bir övladı var, deyirdi. Bütün bu müddət ərzində II Qaregin bu şayiələri nə təsdiq, nə də təkzib edib. Düzdür, Paşinyan da katolikosun oğlu və ya qızının adını, harada yaşadığını və bu adamın nə işlə məşğul olduğunu deməyib. Buna baxmayaraq, hökumət başçısı əmindir ki, subaylıq pozulub, ona görə də II Qaregini ÜAK-ın rəhbərliyindən kənarlaşdırmaq lazımdır. O, saleh bir xristian olaraq buna dözə bilmir və Allahın məskənini çirkabdan qorumaq istəyir.

Bununla yanaşı, Paşinyan artıq kilsə əleyhinə kampaniyanı o həddə çatdırıb ki, ÜAK-ın inzibati mərkəzi olan Müqəddəs Eçmiədzinin ana taxt-tacının yerləşdiyi Vaqarşapat şəhərində kütləvi mitinq keçirəcəyini vəd etsin. Onun sözlərinə görə, II Qaregini kilsədən qovmaq üçün insanlar toplaşmalıdır. "Biz bunu birlikdə edəcəyik. Hazır olun. Əsilzadələrin yurdu zadəganlar üçündür", - Paşinyan yekunlaşdırıb. ÜAK baş nazirin hədələrinə son dərəcə ciddi yanaşır. Kahinlər onun Vaqarşapatdakı görüşlə bağlı dediklərini zorakılığa doğru addım kimi qəbul etdilər. "Müqəddəs Eçmiədzinin Ana taxtı bu hücum və zorakılıq törətmək cəhdini pisləyir, bunu erməni kilsəsinin həyatına və onun özünüidarəsinə açıq müdaxilə kimi qiymətləndirir. Biz hakim siyasi qüvvəni kilsə əleyhinə və qanunsuz kampaniyanı dayandırmağa çağırırıq", - ÜAK rəhbərliyi bildirib.

Bundan əlavə, yepiskop Gevorq Saroyan bəyan edib ki, II Qaregin Paşinyanın iddia etdiyi kimi kilsəni korrupsiyaya qərq edən bir növ azğın deyil, xalq tərəfindən İnşaatçı ləqəbli böyük insandır. Saroyan patriarxı ilə VII əsrdə yaşamış və yorulmaz quruculuğu ilə məşhur olan III Nerses arasında paralel aparıb. O, Zvartnots kilsə kompleksini tikdirmiş, sonralar İrəvan hava limanının adını da almışlar.

Kilsə üzvləri dövlət çevrilişində iştirakda ittiham olunan Erməni İnqilabi Cəbhəsi Daşnaksütyun (ARF) təşkilatını da dəstəkləyib. Daşnakların fikrincə, Paşinyanın mitinq vasitəsilə II Qaregini devirmək çağırışı ağır və xüsusilə ağır cinayətlər törətməyə hazırlıqdır. "Bu çağırışlarda cinayət məsuliyyətinə cəlb olunan əməllərin əlamətləri var: bütün ermənilərin katolikosunun zorakılıq hədəsi altında və ya zor tətbiq etməklə ələ keçirilməsi, istefaya getməyə məcbur edilməsi, təxribat və kütləvi iğtişaşlar təşkil edilməsi... Biz Ermənistanın Baş Prokurorluğundan və istintaq orqanlarından tələb edirik ki, Ermənistanın Baş Prokurorluğu və istintaq orqanları ona qarşı cinayət işi qaldırsınlar, ARF və Nikol, ARF, Nikol, A. bildirildi.

Dövlət çevrilişinə çağırışda ittiham olunan Samvel Karapetyanın "Taşir" Şirkətlər Qrupunun rəhbərliyi də II Qareginin müdafiəsinə qalxıb. "Baş verənləri təsvir etməyə söz tapmaq çətindir. Eçmiədzinə hücum edəcəklərin monqollar, səlcuq türkləri və ya osmanlılar deyil, öz soydaşlarımız olduğuna inanmaq daha çətindir. Əgər bu təhlükə reallaşarsa, o zaman biz erməni xristianlar, bütün mömin xalq ayağa qalxmalı, Tasarınlar Qrupunun prezidentini müdafiə etməliyik". ÜAK Ruhani Şurasının üzvü Hayk İqnatyan.

Maraqlıdır ki, Beynəlxalq Respublikaçılar İnstitutunun (IRİ) keçirdiyi sorğuya əsasən, ordu Ermənistanda ən populyar qurum hesab olunur - respondentlərin 72%-i bundan razı, 24%-i isə yox. AAC ikinci yerdə qərarlaşıb - 58% qarşı 35%. Bununla belə, baş nazir daha da pis işləyir - 38% ona inanır, 58% isə yox. İl ərzində kilsəyə dəstək 10% artıb, hökumət başçısı isə 8% azalıb.

Politoloq Karen İgityan hesab edir ki, Paşinyana inamın azalması birbaşa onun kilsə əleyhinə kampaniyası ilə bağlıdır. Ermənilərin çoxu hesab edir ki, o, müstəqil deyil, Azərbaycan və Türkiyə hakimiyyətinin sifarişi ilə hərəkət edir. Eyni zamanda, o, baş nazirin II Qareginin istefasına nail olmaq yolunu görmür. "Paşinyanın bu məsələdə legitimliyi sıfırdır. Baş nazir kimi onun kilsə işlərinə qarışmaq hüququ yoxdur. Erməni Apostol Kilsəsinin parishionu kimi onun katolikosu çıxarmaq və həttə bu prosesi başlatmağa haqqı yoxdur. Birinci halda o, respublikanın qanunlarını pozur, ikincidə isə kilsənin qanunlarını pozur, lakin Paşinyan heç vaxt kilsənin qanunlarını poza bilmir. Onun bu dəfə uğur qazanıb-qazanmayacağı Ermənistan xalqının reaksiyasından asılıdır", - İgityan NG-yə bildirib.

ANALİTİK

**V.VƏLİYEV**



MƏTLƏB

Metlebsalahov@mail.ru

## Tramp da Paşinyanı küncə sıxıb - Sülh Müqaviləsi yaxın görünür...

***Prezident İlham Əliyevin Şuşada keçirilən Media Forumunda ABŞ Prezidenti Donald Tramp barədə dedikləri, onun fəaliyyətini yüksək qiymətləndirməsi, bunun ardınca Ağ Ev sahibinin Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması üçün əla imkanın yarandığı barədə açıqlaması Cənubi Qafqaz üçün yeni dönəmin başlayacağına işarədir. Çünki Qərbmeylli Nikol Paşinyan hakimiyyətinin ABŞ rəhbərinin siyasi kursuna ağız büzəcəyi qətiyyən mümkün deyil. N.Paşinyan da bu prosesdən daxili siyasətdə faydalanmağa, ona düşmən kəsilən revanşistləri Ermənistan siyasətindən birdəfəlik "təmizləməyə" və qarşıdakı seçkilərə qədər Sülh Sazişinin imzalanmasına çalışır. Açıq görünür ki, hazırkı ABŞ Administrasiyası Azərbaycan və Ermənistan arasında Sülh Müqaviləsinin bağlanması üçün real imkanları işə salmağa hazırlaşır.***

Ağ Ev Sülh Müqaviləsinin reallaşmasına indi əvvəlkindən daha çox istəkli görünür. Xüsusilə Vaşinqtonda Ermənistanın Türkiyə və Azərbaycanla əməkdaşlığının qurulması, rəsmi Ankara vasitəsilə bölgədəki proseslərin ABŞ-ın "dirijorluğu" ilə formalaşdırılması üçün düşünürlər. Bu elə bil vaxtda baş verir ki, artıq D.Trampın dəfələrlə onu aldadan, Ukrayna müharibəsində ABŞ rəhbərinin istəklərinə qarşı çıxan Vladimir Putinə zərrəcə qədər də inamı qalmayıb. Bu fakt, ABŞ-ın Cənubi Qafqaz siyasətində Türkiyə ilə birgə hərəkətliyini şərtləndirir. Təəccüblü deyil ki, hazırda Rəcəb Tayyib Ərdoğanla son dərəcə yaxşı münasibətləri olan D.Tramp bölgə siyasətinə Türkiyə lideri ilə məsləhətli siyasət yürüdür. Bunun nə vaxta qədər davam edib-etməyəcəyini zaman göstərəcək. Lakin reallıq odur ki, Ərdoğan və Tramp arasında mühüm tərəfdaşlıq siyasəti davam edir. Əlbəttə, rəsmi Bakı üçün əsas maraqlı olan məqam, D.Tramp-R.T.Ərdoğan əməkdaşlığının Azərbaycan və Ermənistan arasında Sülh Müqaviləsinin bağlanmasına nə dərəcədə müsbət təsir göstərəcəyidir. Hazırda Ermənistan daxilində revanşistlər, Rusiyameyilli qüvvələr və ona düşmən kəsilən keşişlərlə mübarizə aparan N.Paşinyan da böyük məsuliyyət altındadır. Elə addımlar atmalıdır ki, Sülh Müqaviləsi imzalansın, erməni ictimai fikrini də real və alternativi olmayan konstruktivlik siyasətinə tamamilə inandırıb özünün müdafiəçisi halına gətirsin.

Amma ən əsas məsələ, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Media Forumunda dediyi kimi, keçmiş Minsk Qrupunun buraxılması və Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu maddələrinin silinib atılmasıdır.

Yəni görünən odur ki, Sülh Müqaviləsini imzalamağa hazır olduğunu deyən N.Paşinyan hakimiyyəti ilk əvvəl Ermənistan Konstitusiyasına "əl gəzdirməli" olacaq. Çünki bu Azərbaycanla normal münasibətlər qurmaq, Sülh Müqaviləsi imzalamaq və bununla da Ermənistanın bölgədəki mühüm iqtisadi layihələrə qoşulmasına yaşıl işıq yandırması üçün ən mühüm şərtdir. Əgər D.Tramp Administrasiyası və şəxsən Ağ Ev sahibi bu siyasəti davam etirərsə, biz yaxın vaxtlarda Azərbaycan və Ermənistan arasında Sülh Müqaviləsi üçün mühüm addımların şahidi olacayıq. Əlbəttə, "şeytan çarxı" ortaya girməsə...

# Türkiyədə istirahət niyə baha başa gəlir?



### EKSPERT AÇIQLADI

”Son bir neçə il ərzində, xüsusilə COVID-19 pandemiyasından sonra, Türkiyəyə istiqamətlənən turizm paketlərinin qiymətlərində ciddi artımlar müşahidə olunmaqdadır. Statistiki göstəricilərə əsasən, bu artım bəzən 50 faizdən çox təşkil etmişdir. Bu tendensiyanın əsas səbəbləri arasında pandemiya dövründə və sonrasında dünya miqyasında baş verən iqtisadi böhranlar, nəqliyyat xərclərinin yüksəlməsi, qida məhsullarının bahalaşması, enerji daşıyıcılarının qiymətindəki artımlar və yüksək inflyasiya səviyyəsi dayanır. Bu faktorlar birbaşa olaraq turizm sənayesinə təsir göstərmiş, nəticədə turizm paketlərinin maya dəyəri və satış qiymətləri yüksəlmişdir”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.



Ceyhun Aşurov sözlərinə belə davam edib: ”Pandemiyadan sonrakı mərhələdə qiymətlər qlobal miqyasda nisbətən stabilləşsə də, Türkiyə istiqamətində turizm xərcləri yüksək səviyyədə qalmaqda davam edir. Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının məlumatına əsasən, 2021-2022-ci illərdə dünya üzrə turist başına düşən orta xərclər 1500 ABŞ dollarına yaxınlaşmışdır ki, bu da pandemiyadan əvvəlki (2018-2019) illərlə müqayisədə təxminən 50% artım deməkdir (əvvəlki dövrdə bu rəqəm təqribən 1000 dollar idi).

Bununla yanaşı, Türkiyə özünü əvvəlki dövrlərlə müqayisədə fərqli turizm strategiyası çərçivəsində təqdim etməyə başlamışdır. Əvvəllər kütləvi və nisbətən ucuz destinasiya imicinə malik olan Türkiyə, son illərdə daha gəlirli və yüksək seqmentli turistləri cəlb etməyə çalışmış, bunun nəticəsində turizm məhsullarının qiymətləri daha yüksək səviyyədə formalaşmışdır. Ölkə daxilində aparılan iqtisadi siyasət də bu qiymət artımlarına təsir göstərmiş, bir sıra xidmətlərdə və istehlak məhsullarında bahalaşma müşahidə edilmişdir.

Əvvəllər Azərbaycan və digər ölkələrdən gələn turistlər üçün Türkiyə daha əlverişli alış-veriş, qida və otel xərcləri ilə seçilirdisə, hazırkı mərhələdə bu üstünlüklər xeyli zəifləyib. Maraq doğuran bir məqam isə ondan ibarətdir ki, artıq Türkiyə vətəndaşlarının özləri də daha sərfəli alternativlər axtararaq Misir, Azərbaycan, Gürcüstan və Balkan ölkələrinə səyahət etməyə başlamışlar.

Bu qiymət artımları ümumilikdə Türkiyənin turizm paketlərinə olan tələbatı müəyyən qədər azaltsa da, rəsmi statistika göstərir ki, ölkə ötən il 60 milyona yaxın turist qəbul etmiş və turizmdən 57 milyard ABŞ dollarından çox gəlir əldə etmişdir. Bu nəticələr həm də Türkiyənin pandemiyadan sonra turizm sahəsində tətbiq etdiyi çevik siyasət, məhdudiyyətlərin tez bir zamanda aradan qaldırılması və geosiyasi əlaqələrdən uğurla faydalanması ilə izah olunur. Xüsusilə də Rusiya bazarına çıxışın açıq qalması və Avropa ölkələrinin tətbiq etdiyi məhdudiyyətlər fonunda Rusiyadan olan turistlər və iş adamları üçün əlverişli şəraitin yaradılması mühüm rol oynamışdır.

Nəticə etibarilə, Türkiyənin turizm qiymətlərindəki artım onun daxili iqtisadi vəziyyəti, strateji mövqelendirmə siyasəti və beynəlxalq siyasi-iqtisadi şərtlərlə sıx bağlıdır. Bu artımlar bir tərəfdən ölkənin turizm gəlirlərini artırsa da, digər tərəfdən bəzi bazarlarda rəqabət qabiliyyətini zəiflədə bilər”.

***Ayşən Vəli***

# İtaliya mətbuatı III Şuşa Qlobal Media Forumunu diqqətdə saxlayıb

***İtaliyanın mətbu orqanları ”Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda keçirilən III Şuşa Qlobal Media Foruma geniş yer ayırıb. AZƏRTAC xəbər verir ki, ”Giornale Diplomatico” portalının yaydığı materialda Azərbaycanın - Xankəndinin əlamətdar hadisəyə şahidlik etdiyi, qlobal gündəmi müəyyənləşdirən və beynəlxalq müstəvidə informasiya yayan media nümayəndələrinin artıq üçüncü dəfə Qarabağa toplaşdığı bildirilir.***

Vurğulanır ki, bu tarixi hadisənin təşəbbüskarı Azərbaycan Prezidenti İlham Əliyevin əsas məqsədi qlobal informasiya bazarına nəzarət edən 52 ölkədən 80-dək media qurumu və 30-dək informasiya agentliyi vasitəsilə yeni Azərbaycanı dünyaya tanıtmaq idi. Şuşa Forumunun ilkin nəticələri və onun qısa müddətdə beynəlxalq mediada yaratdığı təəssürat onu göstərdi ki, tədbirdə səslənən bəyanatlar və fikirlər bir çox ölkələrdə ictimai rəydə ciddi rezonans doğurub. Çoxları üçün bu hadisə motivasiya nümunəsi, yeni fəaliyyət və mübarizə mexanizmlərinin inkişafı üçün əsas olub.

Yazıda Prezident İlham Əliyevin Xankəndidə Forumun iştirakçıları ilə görüşdə səsləndirdiyi fikirlərə geniş yer verilib. ”Kmetro0” portalının yaydığı materialda isə Prezident İlham Əliyevin həmişə olduğu kimi bu fürsətdən də istifadə edərək tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanı dünyaya tanıtdığı vurğulanır. Diqqətə çatdırılır ki, dövlətimizin başçısı ölkəmizin fəaliyyətini, qələbələrini, uğurlu modellərini Azərbaycan xalqının potensialının nümunələri kimi təqdim edib, məlum uğur hekayələrindən danışıb.




Vurğulanır ki, III Şuşa Qlobal Media Forumu ”Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusuna həsr olunsa da, Prezident İlham Əliyev tədbiri elə ilk cümləsindən daha geniş qlobal problemlərin müzakirəsi platformasına çevirib. Prezidentin fikirləri Azərbaycanın müstəqillik tarixinin bütün dövrlərini və onun siyasi-ictimai sistemini, o cümlədən ölkənin Qələbəsindən sonra seçdiyi yeni yolun mahiyyətini əks etdirən rəhbər konsepsiyadır. Prezident İlham Əliyev öz fəaliyyətini, məqsədlərini və baxışlarını dünyanın müxtəlif ölkələrindən olan media mütəxəssisləri ilə bölüşüb, Azərbaycana yeni baxışını təqdim edib. Qeyd olunur ki, Forum zamanı Prezident İlham Əliyev ölkənin yaşıl gündəliyindən tutmuş qlobal iqlim dəyişikliyinə, ikitərəfli əməkdaşlıqdan beynəlxalq tərəfdaşlığa, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasından Qafqazda sülhün və tərəqqinin təmin edilməsinə, Azərbaycanın yerli inkişaf təcrübəsinin qlobal artıma verdiyi töhfələrdən, Zəngəzur və Orta dəhlizlərdən tutmuş yeni Avrasiya logistika layihələrinə, qitənin enerji təhlükəsizliyindən bəşəriyyəti təhdid edən müharibələrə, Ermənistanla sülh danışıqlarından tutmuş neokolonializmlə mübarizəyə, ABŞ-dan Çinə, Rusiyadan Latın Amerikasına, Avropa İttifaqından İslam Əməkdaşlıq Təşkilatına qədər bir çox mövzularda qəti mövqelərini ifadə edib.




Materialda, həmçinin Azərbaycan Prezidentinin müxtəlif ölkələrdən jurnalistlərin suallarını cavablandırdığı, media nümayəndələrinin Ağdam, Laçın və Xocalıya səfər etdikləri bildirilir.



# Yağ bizə dağ çəkirmiş ki...

**MƏTANƏT**

***Tə bu barədə də məlumatı oxuyandan sonra fikirləşirəm ki, görəsən biz nə üçün bir-birimizə qənim kəsilmişik? Məgər hər şey tək pulla, gəlirlə ölçülür? Bəs vicdan, bəs onun ölçüsü?..***

Anam deyərdi ki, yağ evin ”ana həddidir”. Soruşardım ki, ay ana, yəni nə? Deyərdi ki, bütün ərzaqlar evdə hər gün istifadə olunmadığı təqdirdə, yağ hər gün istifadə olunur, həm də 2-3 dəfə, bu səbəbdən evin ana həddidir. Ona görə də yağın bitməsinə diqqət göstərməlisən, qurtarana yaxın almalısan ki, evdən üzülməsin, bir də, hər gün istifadə olunduğu üçün keyfiyyətinə diqqət etməlisən.

Bunu hər kəs bilir. O səbəbdən də yaxşı yağ almaq istəyir ki, hər gün istehlak etdiyi bu ərzaq növü onun ömrünün sonunu gətirməsin. Beləliklə, üz tutur marketlərə, baxır, görsün, yağın qiyməti necəyədir. Hansından alsın ki, keyfiyyətli olsun.

Son illər istehlakçılar İran İslam Respublikasında istehsal olunan kərə yağlarına üstünlük verirdi. Çünki həqiqətən əvvəllər bu yağdan istifadə zamanı adamın burnuna həqiqi kərə yağının ətri gəlirdi. Lakin istifadə edənlərin hər biri təsdiqləyər ki, son vaxtlar bu yağ marqarin dadı verir. Biz də, ”yox ey, bu, İran yağıdır, keyfiyyətlidir”,- deyib özümüzü buna inandırırıq. Əslində İran yağları həqiqətən də keyfiyyətlidir, lakin sən demə, öz ölkəsində. Bizdə buna bir əl gəzdirirmişlər ki, dadı və ətri belə qarışırmış çox güman ki...

Bu, məsələnin bir tərəfi. İndi baxaq, iqtisadçı açıqlamasında Azərbaycan kərə yağına: xaricdən, əsasən İrandan və digər ölkələrdən 50-100 kq-lıq qablaşdırmada kərə yağı gətirilir, sonra bu məhsul emal olunur, tərkibinə 20, 30, hətta 40 faiz palma yağı qatılır və qablaşdırılır. Bu da olur Azərbaycanda istehsal olunan kərə yağı. Əslində isə Azərbaycanda sənaye üsulu ilə təmiz kərə yağı istehsal olunmur.

Bu da bizim yerli kərə yağları... Yağ bizə dağ çəkirmiş, xəbərimiz yox imiş. Onun içərisinə qatılan və bu qatqılarla birlikdə bizə kərə yağı qiymətinə sırınan bu yağlar həm də tək sağlamlıq nöqteyi-nəzərindən deyil, mənəvi tərəfdən də dağ çəkirmiş. Çünki gözümüzün içərisinə baxa-baxa bizi aldadırmışlar. Hələ aradabir bu yağlar endirimə də düşür. Bu zaman qaçıb bir kiloqram da alırdıq ki, endirimdədir də, yararlanaq.

Lakin bütün bu məlumatlara əsasən düşünürəm ki, yəqin endirimə salınan yağların tərkibi daha fərqli olur, yəni 20, 30, 40 faiz deyil, 50-60 faiz palma yağı. Desələr ki, yox, belə deyil. Deyə bilərəm ki, artıq istehsalçılara inamımız-gümanımız qalmayıb.

Əslində bu yağları satan marketlər də məsuliyyət daşıyır. Çünki tərkibi yoxlanmayan, nə olduğu bilinməyən yağların, digər ərzaqların, ət və süd məhsullarının, tərəvəzlərin insanlara sırınmasında onların da ”zəhməti” yox deyil.

Maraqlıdır, bir-birimizə qənim kəsildiyimiz bu ölkədə kimə inanaq, kimə güvənək? Axı nə üçün birbirimizə düşmən kəsilmişik? Özümüz bir tərəfə, nə üçün günahsız övladlarımızı bu kimi təhlükələrlə utanmadan üz-üzə qoyuruq?..

Kim isə daha artıq qazanaq deyə bizə daha artıq kələk gəlməlidir? Kimsə yaxşı yaşamaq istəyirsə, yalanlar üzərində xaniman qurmaq istəyirsə, bunun hədəfi nə üçün günahsız insanlar olmalıdır?.. Hanı Qida Təhlükəsizliyi Agentliyi? İqtisadiyyat Nazirliyinin müvafiq şöbələri hara baxır?

40-50 faizədək palma yağı qatıb, yenidən ”istehsal” edib insanları aldatmaq nə deməkdir? Bəlkə də biz marketlərdə bu yağları alarkən kənardan bizə baxıb gülürlər: alın, alın, ay yazıqlar, sizi belə aldadırıq bax...

İndi baxın, yerli yağla bizə necə dağ çəkirmişlər... Bizdə də günah çoxdur. İndi ki bunu bildik, gəlin bu yağlardan heç kim almasın. Bunu ”istehsal” edənlərə də biz belə dağ çəkək!

# "Jurnalistika şərəfli və yüksək məsuliyyət tələb edən peşədir"

***Bu gün Azərbaycan mediası milli sərhədləri aşaraq beynəlxalq səviyyədə fəaliyyət göstərən, qlobal perspektivli regional baxış təqdim edən, dünyanın müxtəlif bölgələrində oxunan və istinad olunan, Azərbaycanın yeni-qlobal xarakterli xarici siyasəti ilə uzlaşan təsirli "yumşaq güc" vasitələrindən biridir. SİA xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Milli Mətbuat Günü münasibətilə "X" hesabında yazıb.***



O bildirib ki, bu əlamətdar gün yalnız media ictimaiyyəti üçün deyil, bütövlükdə cəmiyyətimiz üçün böyük əhəmiyyət daşıyır: "Jurnalistika şərəfli və yüksək məsuliyyət tələb edən peşədir. Sizlər bu çətin, lakin vacib missiyanı peşəkarlıqla yerinə yetirir, cəmiyyətin obyektiv məlumatlandırılması, maarifləndirilməsi və milli dəyərlərin təbliği istiqamətində fədakarcasına çalışırsınız. Cənab Prezidentimiz İlham Əliyevin mediamıza verdiyi yüksək qiymət və söylədiyi dəyərli fikirlər jurnalistika peşəsinə göstərilən böyük etimad və diqqətin bariz nümunəsidir. Azərbaycan milli mətbuatının 150 illik yubileyinin qeyd olunması ilə bağlı dövlət başçımızın Sərəncamı, eləcə də bir çox peşəkar jurnalistin dövlət təltiflərinə layiq görülməsi ölkəmizdə medianın inkişafına verilən önəmin təzahürüdür və bu sahədə çalışanlar üçün böyük stimuldur. Bu əlamətdar yubiley münasibətilə hər birinizi bir daha səmimi qəlbdən təbrik edir, Cənab Prezidentimizin mediamız qarşısında müəyyənləşdirdiyi hədəflərin reallaşmasında, dövlətçiliyimizin möhkəmləndirilməsi və milli maraqlarımızın qorunması yolunda fəaliyyətinizdə davamlı uğurlar arzulayıram".

# "Forum gerçəklərin üzə çıxarılması üçün formalaşmış bir platformadır"

**"Şuşa Qlobal Media Forumu həm ölkəmizin ictimai-siyasi həyatında, həm də bütövlükdə cəmiyyətimizin həyatında mühüm əhəmiyyət daşıyan hadisələrdən biridir. Artıq üçüncü dəfə keçirilən Şuşa Qlobal Media Forumu ildən-ilə daha çox iştirakçı toplayır. Fərqli ölkələrin təmsilçiləri, beynəlxalq agentliklərin və nüfuzlu media strukturlarının nümayəndələri bu mühüm tədbirdə bir araya gəlirlər". Bu sözləri SİA-ya 3-cü Şuşa Qlobal Media Formu zamanı politoloq Tofiq Abbasov deyib.**





Onun sözlərinə görə, artıq dünya bilir ki, Şuşa Media Forumu gerçəklərin üzə çıxarılması üçün formalaşmış bir platformadır. Burada aparılan müzakirələr, tanınmış ekspertlərin və aparıcı media nümayəndələrinin müxtəlif məsələlərə dair səsləndirdiyi fikirlər, irəli sürdüyü yanaşmalar həm ölkəmiz, həm də beynəlxalq ictimaiyyət üçün mühüm aktuallıq kəsb edir: "Forumun əhəmiyyəti Prezident İlham Əliyevin açılış mərasimində iştirak edərək çıxış etməsi və xarici media nümayəndələrinin suallarını cavablandırması ilə daha da artır. Prezidentin cavablarında mühüm mövzulara toxunuldu, strateji önəm kəsb edən fikirlər və açıqlamalar səsləndirildi. Müasir dövrdə insanlar gündəlik olaraq saysız-hesabsız informasiya qəbul edirlər. Bu qədər məlumatın içərisində yalanı gerçəkdən ayırmaq getdikcə çətinləşir. Prezident İlham Əliyevin çıxışından aydın oldu ki, informasiya təhlükəsizliyi bu gün bizim üçün milli təhlükəsizlik qədər vacib məsələdir. Bəzi dairələr klassik jurnalistikanı təbliğat alətinə çevirmək istəyir, lakin Azərbaycan bu məsələdə fərqli yol seçir - biz obyektiv və həqiqi informasiyanı prioritet hesab edirik.

Prezidentimizin media ilə bağlı məsələlərə dərindən bələd olduğunu 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. O dövrdə dövlət başçısı 40-a yaxın müsahibə verərək Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırdı, beynəlxalq medianın diqqətini ədalətli və obyektiv həqiqətlərə yönəltdi. Bu fakt bir daha sübut edir ki, informasiya müharibəsi real döyüş meydanları qədər əhəmiyyətlidir. İnformasiya sahəsində çalışan hər bir peşəkar öz vəzifəsinin məsuliyyətini dərk etməli, yazdığı hər sətirə, səsləndirdiyi hər sözə, çəkdiyi hər kadra görə məsuliyyət daşımalıdır. Jurnalistika sadəcə peşə deyil, həm də bir sənətdir, cəmiyyətə yön verən, ictimai rəyin formalaşmasında həlledici rol oynayan nüfuzlu bir sahədir.

Forumun auditoriyası olduqca geniş və rəngarəngdir. Bu il tədbirə Afrikadan, Amerikadan, Cənubi Asiyadan və dünyanın digər regionlarından nümayəndələr qatılıb. Onlar burada ciddi işlərin aparıldığını, faydalı müzakirələrin təşkil olunduğunu görür və Şuşanın mədəni-siyasi mühitində formalaşan bu platformanı yüksək qiymətləndirirlər. Məqsədimiz, informasiya siyasətində obyektiv mövqe tutaraq qlobal problemlərin həllinə, beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə töhfə verməkdir.

Prezident İlham Əliyev jurnalistlərin suallarını cavablandırarkən Ukraynalı jurnalistlərin Azərbaycanın təcrübəsindən örnək götürdüyünü və öz haqq mübarizələrinə davam etdiklərini bildirdi. Azərbaycan daim münaqişələrin həllində sülh yolunu üstün tutmuş, beynəlxalq hüququn prinsiplərinə sadiq qalmışdır. Ukrayna məsələsində də Azərbaycan ilk gündən bu ölkənin ərazi bütövlüyünü tanıdığını və problemin sülh yolu ilə həllini dəstəklədiyini bəyan edib. Eyni zamanda, Azərbaycan dövləti Ukrayna xalqına humanitar yardımlar göndərir ki, bu da humanist dəyərlərə və beynəlxalq həmrəyliyə sadiqliyimizin bariz nümunəsidir.

***Ziya Hikmətoğlu***



**Lalə Mehralı**

# Diqqət, efir! Kim nə danışır?

***Bir neçə gün əvvəl əməkdar artist Zakir Əliyevin efirdə səsləndirdiyi fikirlərə görə Audiovizual Şura Xəzər tv-yə xəbərdarlıq etmişdi. Xanəndə efirdə deyib: "O evdə ki, qadın idarəçiliyi var, orada bərəkət yoxdur. Xanımlar özləri bilməlidir. Allah kişini üstün yaradıb. Əgər kişidirsə, evdə onun səsi çıxmalıdır. Azərbaycan ailəsində belə olmalıdır".***

Dediklərini Şura gender ayrı-seçkiliyi kimi qəbul edib. Üslubu sərtdir, amma yalan deyil dediyi. Ailəli olan bütün qadınlar bunu anlayır - hamımız evdə ən son qərarı ərimizlə məsləhətləşirik, o qol qoymasa ya gərək boşanaq, ya da ortaq bir yol tapaq. Bu, kişinin üstünlüyü kimi qələmə verilməməlidir, qadının öz həyat yoldaşına hörmətidir bu.

Xanəndə bərəkət barədə düzgün fikir irəli sürməyib, əksinə, qadının olmadığı evin bərəkəti olmaz. Bərəkət elə qadınla gəlir evə və bütün evli kişilər bunun fərqindədir. Amma idarəetmədə "sən", "mən" davası olacaqsa, o ailədən ailə olmaz. Ailə birlikdə idarə edilər, hərə öz üstünə düşəni edər. Ortaq yolu da belə tapırıq hamımız. Gender bərabərliyi deyə-deyə əri arvadına, arvadı ərinə düşmən elədilər.

Nə isə, mənim demək istədiyim başqa şeydir. Xanəndənin sözlərini "cinsi ayrı-seçkiliyin təbliği" kimi qəbul edən AudioVizual Şura bu günədək efirlərdə baş verən əxlaqsızlıqlara niyə səssiz qalırdı? Ailə dəyərlərini yerə atıb öz dikdabanları ilə üstündə atılıb düşən lüt-madərzad aparıcılara niyə etiraz eləmir? Ailə sirlərini, məhrəmiyyəti o sosial layihə kimi təqdim elədikləri verilişlərdə faş edib milyonlarla insana göstərənlərə niyə xəbərdarlıq edilmir?

Tumanla, büstqalterlə efirə çıxıb bizə əxlaq, mənəviyyat dərsləri verən aparıcılara, müğənnilərə niyə etiraz eləmir Şura? Onlar da xalqın əxlaqını pozur axı? Efirdə atası olmayan qızlara həqarət edən birisini 2 ay sonra yenə başa keçirən tv-yə niyə xəbərdarlıq eləmir? Özü atasız uşaq dünyaya gətirən birisi efirə çıxıb atasız böyümək məcburiyyətində olan minlərlə uşağı təhqir edə bilir, bu cəsarəti ona cəzasızlıq verir.

Zamanında bu adamlara xəbərdarlıq edilmədiyi üçün bu gün istənilən adam efirə çıxıb hərzə-lərzə danışmaq ixtiyarı görür özündə. Efir müqəddəs idi bir vaxtlar, toxunulmaz idi, əl yetməz, ün çatmaz idi. Efirdə olanların dediyi Quran ayəsi idi tamaşaçı üçün. Çünki bilirdilər ki ora eləbelə adam çıxmaz, çıxarmazlar! Tamaşaçı bilirdi ki, efirdə ailəni, cəmiyyəti pozan heç nə göstərilməz.

Qadın-kişi bərabərliyi məsələsi efirdə müzakirə edilən ən bəsit məsələdir əslində, daha təhlükəli məsələləri görmürlər, ya da görmək istəmirlər. Bu məsələyə qədər efirlərdə əxlaq pozan, mənəviyyat ləkələyən, ailə dağıdan, insanları təhqir edən çox əxlaqsız məsələ müzakirə edilib və Şura heç vaxt onlara fikir bildirməyib. Biri çıxır atasız uşaq doğmağından fəxrlə danışır, Şura dinmir. O biri çıxır başqasının nikahlı ərindən necə uşaq düzəltdiyini deyir, Şura dinmir. Başqa bir əxlaqsız çıxır vətəndaş nikahlarını müdafiə edir, Şura yenə dinmir. Əxlaqsızlığın azadlıq hesab edildiyi, soyunmağın adının cəsarət qoyulduğu, məhrəm yerlərin nümayişinin müasirlik adlandırıldığı yerdə başqa nə gözləmək olardı ki?

# Vaqif Poeziya Günləri - Şuşada şeir və sənət bayramı



Qarabağın incisi Şuşamız yenidən toy-büsata büründü. 28 illik zamandan sonra yenidən öz həyatına qovuşan Şuşada bir-birindən fərqli məzmunda keçirilən tədbirlərə saysız insanlar toplaşır. Dili, irqi fərqli olan insanlar bu məkanın gözəlliyini duyur. Erməni işğalından azad olan qədim şəhər hər birimiz üçün and yerinə, müqəddəs məkana çevrilib. Şuşa yenidən başqa bir ab-havanı yaşadı. Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Şuşada növbəti dəfə Vaqif Poeziya Günləri təşkil olunub. Tədbirdə dövlət və hökumət qurumlarının nümayəndələri, elm və mədəniyyət xadimləri iştirak ediblər. Əlbəttə ki, Vaqif Poeziya Günlərinin Şuşada artıq beşinci dəfə keçirilməsi mühüm hadisədir.

## VAQİF POEZİYASININ FİKİR YÜKÜ

Vaqif Poeziya Günləri, əslində, sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramıdır. Molla Pənah Vaqifin adının UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətdir. 2017-ci il, həmçinin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən "Molla Pənah Vaqif İli" elan edilərək, bu çərçivədə tədbirlər keçirilib. Uzun illərdir dövlətimiz tərəfindən tanınmış şəxsiyyətlərin yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, əsərlərinin nəşri və təbliği Molla Pənah Vaqif irsini də əhatə edib. Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 12 yanvar tarixli Sərəncamına əsasən, ölkəmizdə şairin xatirəsinə həsr edilmiş elmi-praktik konfranslar, rəsm sərgiləri və digər bu qəbildən olan silsilə tədbirlər keçirilib. Dünya miqyasında Vaqif kimi sənətkarın təbliği onun sənət dünyasının fikir yüküdür. Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu Öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də məqbərənin açılışı olub.

## QAZAXDAN BAŞLANAN YOL ŞUŞA ŞƏHƏRİNDƏ YEKUNLAŞIB

Xatırladaq ki, Vaqif Poeziya Günlərinin açılışı iyulun 14-də Molla Pənah Vaqifin doğulduğu Qazax rayonunda olub. İyulun 15-də Gəncə şəhərində, iyulun 16-da isə Ağdam rayonunda davam edən Poeziya Günləri iyulun 23-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yekunlaşıb. Poeziya Günləri çərçivəsində Şuşanın müxtəlif tarixi və mədəni məkanlarında - o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpaolunan Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Natəvanın evi, Qarabağ hotelində və Mehmandarovlar malikanəsində poeziya saatları, kitab sərgiləri və təqdimatları, musiqili kompozisiyalar, elmi konfrans, teatr tamaşaları və müxtəlif ədəbi-bədii proqramlar təşkil edilib.

Əlbəttə ki, Şuşa musiqi beşiyidir. Buranın hər ağacı, hər qayası, axar suyu bu musiqinin avazı ilə nəfəs almış, bu musiqi qayaların, divarların, lal daşların da yaddaşına hopmuşdur. Bu gün həsrətlə gözlədiyimiz Şuşamızın, "Qafqazın Konservatoriyası"nın torpağındayıq. Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada. Burada "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi Azərbaycanın mədəni həyatının təntənəsinə çevrilib. Bu gün Vaqifin ruhu şaddır. Poeziya günləri çərçivəsində çıxışlar, ədəbi simpoziumlar, sərgilər təşkil olunur. Vaqif Poeziya Günləri təkcə ədəbiyyatdan, sənətdən deyil, Qarabağ tarixindən də dünyaya bir mesajdır.

Ruhu bu məkanlarda dolaşan insanlar azad, rahat nəfəs alırlar. Bülbülün, Natəvanın, Üzeyirin və digər sənətkarların ruhu mənən rahatlandı. Şuşalılar Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün heykəlləri önünə gül dəstələri qoyaraq ziyarət etdilər. Uzun illər idi ki, heykəlləri güllələnmiş Xan qızı, Üzeyir bəy, böyük nəğməkar Bülbül öz doğma yurdlarına qayıdacaqları günü gözləyirdilər. Belə ki, donmuş üzlər hərəkətə gəldi, uzaq kimi görünən yollar bir addımlıqda oldu. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Cansız heykəllərə güllə ataraq qiymətli heykəlləri, milli memarlıq abidələrini, muzey əşyalarını güllələrən etmişdilər. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi.

## BÖYÜK QAYIDIŞIN İŞIĞI ALOVLANAN MÜQƏDDƏS MƏKAN

Bu torpaqda Böyük Qayıdışın işığı alovlanır. Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi. Bu Qurultaya Zəfər adı verildi. Həmin adın verilməsi heç də təsadüfi deyil, müharibədə qazandığımız tarixi zəfərə əsasən Zəfər Qurultayı adlandırıldı. "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər Qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır", - deyə Cənab Prezident bildirmişdir. Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada oldular. Dünyanın müxtəlif ölkələrində yaşayan gənclərimiz və Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri yol boyunca erməni silahlı birləşmələrinin Qarabağda törətdikləri vandalizm aktlarının, eləcə də hazırda azad edilmiş torpaqlarımızda həyata keçirilən tikinti-quruculuq işlərinin şahidinə çevrildilər. Bu və ya digər tədbirlər Şuşanın ruhuna ruh qatmış oldu.

## DAŞLAŞMIŞ YADDAŞDA TARİXİMİZ

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu. "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox", - deyə Cənab Prezident çıxışlarının birində bildirib. Artıq biz Şuşaya qayıtmışıq. Alınmaz qala, Qarabağın tacı sayılan Şuşanın tarixi yaddaşı əsrlərin sorağıdır. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, işğaldan azad olunan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradılır. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin Mədəniyyət paytaxtı elan edildi. Prezident İlham Əliyevin Şuşanı rəsmən Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi bu qədim şəhərin özəlliklərindən qaynaqlanır. Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu. Şübhə yoxdur ki, Şuşa çox yaxın illərdə nəinki Azərbaycanın, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir. Dövlət başçımızın Şuşa şəhərinə etdiyi səfərlərin hər birində ya yeni infrastruktur layihələrinin təməli qoyulub, ya da yeniləri açılıb.

**Zümrüd BAYRAMOVA**

---



Vüqar Vəliyev

# "Səs var, sənət yox - musiqiyə nə olub?"

***Azərbaycan musiqisi bizim tariximizdir, mənliyimizdir, ruhumuzun dilidir. Musiqi deyəndə təkcə bir neçə not, bir səs, bir ifa göz önünə gəlməməlidir. Bizim üçün musiqi vətəndir, bayraqdır, milli kimlikdir. Bu torpağın sazı da, muğamı da, klassik romansları da xalqın içindən çıxıb, xalqla birgə yaşayır.***

O sənətkarlar ki, səhnədə dayananda təkcə oxumurdular - xalqın ruhunu dilləndirirdilər. Üzeyir bəyin notlara yazdığı milli duyğular, Bülbülün opera səhnələrində oxuduğu xalq mahnıları, Rəşid Behbudovun dünyanın müxtəlif dillərində səsləndirdiyi Azərbaycan səsi - bunlar təsadüf deyildi. Bunlar zəhmətlə, istedadla, sevgi ilə doğulmuş sənət idi.

Amma bu gün səhnəyə baxanda insanın içi sızlayır. Sanki mikrofon kimdədirsə, səhnə də onundur. İndi musiqi adı ilə səhnəyə çıxanların bir çoxu nə sənəti tanıyır, nə də xalqın zövqünü. Oxumaq yox, danışmaqdan belə aciz olanlar efirləri zəbt edib. Musiqi yox, səs-küy çoxalıb. Əvvəllər bir mahnı illərlə dildən-dilə gəzirdi. Mahnının sözündə dərin məna, ifasında duyğu, bəstəsində ruh vardı. İndi isə bir mahnı bir həftə yaşayır, sonra unudulur. Çünki o mahnılar hissdən yox, reytinqdən doğur. İndi bir neçə saxta izlənmə ilə "ulduz" olmaq mümkündür. Amma səs yoxdursa, sənət yoxdursa, bu parıltının ömrü çox qısa olur.

Daha acı bir həqiqət var - bu bayağılığa dəstək verənlər də az deyil.

Televiziya kanalları, prodüserlər, bəzi təşkilatçılar bu səs-küyün böyüməsinə səbəb olur. Çünki onlar üçün əsas olan sənət deyil - qazancdır. Kim daha çox baxılır, kim daha çox müzakirə olunursa, ona meydan açılır. Sanki musiqi tərbiyə üçün yox, ticarət üçündür.

Bəs əsl sənətkarlar haradadır?

Onlar bu səhnənin kənarına çəkiliblər. Onlara yer verilmir, səsi az eşidilir, dəstək olunmur. Hətta bəziləri unudulmağa doğru gedir. Bu, bizim mədəniyyətimiz üçün təhlükəli siqnaldır. Əgər biz əsl sənətə, əsl ifaçılara dəyər verməsək, sabah musiqimiz öz ruhunu itirəcək.

Gənc nəsil nə eşidir, kimdən öyrənir?

Əgər bir uşaq hər gün efirdə bayağı, mənasız, zövqsüz musiqilər eşidirsə, sabah ondan milli musiqini sevəcəyini necə gözləyək?

Musiqi zövq formalaşdırır. Zövq isə millətin ruhunu, mənəviyyatını formalaşdırır. Əgər bu zövq korlanarsa, xalq öz dəyərlərini, mənəviyyatını da itirməyə başlayar. Bu gün musiqimizə qarşı səssizcə zərbə vurulur. Amma biz də səssiz qalmamalıyıq. Biz bu bayağılığa qarşı söz deməliyik. Əsl sənətkara, əsl musiqiyə meydan açmalıyıq. Gözəl ifaları, canlı səsləri, dərin sözləri yenidən efirlərə qaytarmalıyıq. Əks halda, bir neçə ildən sonra səhnədə görəcəyimiz tək şey tərbiyəsiz kliplər, mənasız ritmlər, hisssiz səs olacaq.

Unutma: səhnə kimin əlindədirsə, xalqın zövqü də onun əlindədir. Əgər mikrofon sənətsizlərin əlindədirsə, sənət səssiz qalır.

Sonda bir çağırış: Ey bu musiqi ilə böyüyən insan! Əgər bir vaxtlar Flora Kərimovanı, Zeynəb Xanlarovanı, Şövkət Ələkbərovanı, Arif Babayevi dinləmişsənsə - bugünkü zövqsüzlüyə yox deməlisən!

Əgər "Qarabağ şikəstəsi" səni kövrəldibsə - bugünkü qışqırıqlara səssiz qala bilməzsən!

Əgər xalqını, dilini, musiqini sevirsənsə - sənətə sahib çıx!

# Düşmənlər İstanbulda görüşür



**Rusiya və Ukrayna İstanbulda danışıqların üçüncü raundu üçün hazırlığı yekunlaşdırırlar. Bu, prezident Trampın sentyabrın 3-dək Moskvaya münaqişəni sona çatdırmaq üçün ultimatum verməsindən sonra onların ilk görüşü olacaq. Vladimir Putinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, tərəflərin nizamlanmaya yanaşmalarını əks etdirən memorandumlar tamamilə ziddiyyət təşkil edir. Buna baxmayaraq, yeni görüş İstanbulda müxtəlif problemləri həll edən həm Moskvanın, həm də Kiyevin maraqlarına cavab verir. Ukraynada siyasi və diplomatik nizamlanmaya sadiqliyini təsdiq edən prezident Tramp da Rusiya-Ukrayna danışıqlarını davam etdirməlidir.**

Çərşənbə axşamı İstanbulda Rusiya-Ukrayna danışıqlarının üçüncü raundunun dəqiq tarixi ilə bağlı intriqa həllini tapmadı: müxtəlif mənbələr iki nümayəndə heyətinin görüşünün gözlənilən tarixlərini iyulun 23 və 24-ü adlandıraraq, yalnız danışıqların baş tutacağına şübhə etmədiyini bildiriblər. Rusiya nümayəndə heyətinin tərkibi dəyişməyib. Ona hələ də Rusiya prezidentinin köməkçisi Vladimir Medinski rəhbərlik edir. Rusiya danışıqlar qrupuna xarici işlər nazirinin müavini Mixail Qaluzin, Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş İdarəsinin rəisi İqor Kostyukov və müdafiə nazirinin müavini Aleksandr Fomin daxildir.

Mayın 26-da və iyunun 2-də İstanbulda keçirilən iki əvvəlki raundda tərəflər "minə min" düsturuna əsasən məhbusların dəyişdirilməsi və ağır xəstə və gənc (25 yaşdan aşağı) məhbusların "hamı üçün" formatı üzrə - hər tərəfdən ən azı min nəfərin qaytarılması barədə razılığa gəliblər. Moskva və Kiyevin danışıqlar prosesində təxminən iki aylıq fasiləni dayandırmağa və İstanbulda yeni görüş keçirməyə hazır olduqları ötən həftənin sonunda məlum olub.

Kremlin mətbuat xidmətinin məlumatına görə, iyulun 18-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı prezident Putin "münaqişənin siyasi və diplomatik yolla nizamlanmasına dair prinsipial öhdəliyini" təsdiqləyib. O, həmçinin türkiyəli həmkarına "İstanbul platformasında birbaşa Rusiya-Ukrayna danışıqlarını asanlaşdırmağa davam etməyə hazır olduğuna görə" təşəkkür edib. "Anadolu" agentliyinin məlumatına görə, prezident Ərdoğan da öz növbəsində Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda növbəti görüşlərini təşkil etməyə hazır olduğunu qeyd edib. Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğanın söhbətindən sonra prezident Zelenski ötən şənbə günü bildirib ki, Ukraynanın müdafiə naziri kimi əvvəlki iki raundda Ukrayna nümayəndə heyətinə başçılıq etmiş Milli Təhlükəsizlik və Müdafiə Şurasının (MDŞ) katibi Rustem Umerov gələn həftə Rusiyaya danışıqlar qruplarının növbəti görüşünü İstanbulda keçirməyi təklif edib.

Rustem Umerov iyulun 16-da, baş nazir Denis Şmıxalın bütün hökuməti istefaya göndəriləndə Müdafiə Nazirliyinin rəhbəri postunu itirsə də, cəmi iki gün sonra o, Milli Təhlükəsizlik və Müdafiə Şurasının rəhbəri təyin edilib. Ali Radanın Milli Təhlükəsizlik, Müdafiə və Kəşfiyyat Komitəsinin katibi Roman Kostenkonun izah etdiyi kimi, prezident Zelenski Rustem Umerova Rusiya Federasiyası ilə gələcək danışıqlar üçün status vermək üçün onu Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi təyin edib. "Düşünürəm ki, ona statusu ona görə veriblər ki, danışıqları davam etdirsin, o, sadəcə olaraq vəzifəsi olmayan şəxs olmasın", - Roman Kostenko Rustem Umerovun Milli Təhlükəsizlik və Müdafiə Şurasına təyinatını şərh edərkən deyib. Vladimir Zelenski videomüraciətində Ukrayna nümayəndə heyətinin vəzifələrini formalaşdırıb. Onun sözlərinə görə, Ukrayna Rusiya ilə əsirlərin mübadiləsi, ukraynalı uşaqların vətənlərinə qaytarılması və iki ölkə liderləri arasında görüşün hazırlanmasını müzakirə etmək niyyətindədir. Eyni zamanda, cənab Zelenski Ukrayna nizamlanmasının Moskva üçün prinsipial əhəmiyyət kəsb edən əsas məsələlərindən heç birinin adını çəkməyib.

"Der Spiegel" jurnalının qeyd etdiyi kimi, Ukrayna tərəfinin Rusiya ilə danışıqlar aparmaq qərarı prezident Trampın xüsusi nümayəndəsi Keyt Kelloqun keçən həftə Kiyevə səfəri zamanı ABŞ-la razılaşdırıla bilərdi. Dmitri Peskov Rusiyanın İstanbulda gözlənilən danışıqları dəyərləndirib. "Bizim memorandum layihəsi var, Ukrayna tərəfinin təqdim etdiyi layihə var. Hazırda tamamilə diametral şəkildə ziddiyyət təşkil edən bu iki layihə üzrə fikir mübadiləsi və faktiki olaraq danışıqlar aparılır. Ona görə də qarşıda çoxlu diplomatik işlər var", - o vurğulayıb.

Rusiya tərəfinin İstanbuldakı danışıqlarda Ukrayna nümayəndə heyətinə təqdim etdiyi nizamlanma memorandumu Ukraynanın neytrallığını və onun ərazisində üçüncü dövlətlərin hər hansı hərbi fəaliyyətinə qadağa qoymasını nəzərdə tutur. Sənədin birinci bölməsində "yekun hesablaşmanın əsas parametrləri" yer alır. Atəşkəs şərtlərinə həsr olunmuş ikinci bölmə iki mümkün ssenaridən ibarətdir. Xüsusilə, şərtlərdən biri Kiyevin "siyasi məhbuslar"a amnistiya elan etməsi və həbsdə olan hərbçilərin və mülki şəxslərin azadlığa buraxılmasıdır. Üçüncü bölmə addımların ardıcıllığını və onların həyata keçirilməsi müddətlərini müəyyən edir.

Dmitri Peskovun şərhindən belə çıxır ki, Moskva qarşıdakı danışıqlardan hər hansı irəliləyiş gözləmir və gərginliyin azaldılması istiqamətində atılacaq istənilən addımı irəliləyiş kimi qiymətləndirəcək. "Gəlin açıq deyək: Ukrayna nizamlanmasının mövzusu o qədər mürəkkəbdir ki, mübadilə və ya ölənlərin cəsədlərinin qaytarılması ilə bağlı razılaşmaların əldə olunması artıq nəticədir, ona görə də bu halda mən sizin skeptisizminizi bölüşməzdim. Təbii ki, möcüzələr kateqoriyasından hansısa irəliləyişlərə ümid etmək üçün heç bir əsas yoxdur. Çətin ki, bu, real vəziyyəti necə izah edə bilər? İstanbulda gözlənilir.

Dmitri Peskov onu da açıqlayıb ki, Ukrayna prezidentinin çağırdığı Vladimir Putinlə Vladimir Zelenskinin şəxsi görüşü hələ planlaşdırılmayıb, çünki "hələ görüləsi çox iş var". Eyni zamanda, Kreml ondan irəli gəlir ki, cənab Zelenskinin prezident Putinlə danışıqlara qoyduğu qadağanı hələ də aradan qaldırmayıb. Ümumiyyətlə, Rusiya tərəfi İstanbuldakı görüşü prezident Trampın Ukrayna nizamlanmasında irəliləyiş olmadığı halda sentyabrın 3-dən Moskvanın tərəfdaşlarına qarşı ikinci dərəcəli sanksiyalar tətbiq etmək hədələri fonunda diplomatik pəncərəni açıq saxlamaq imkanı kimi qiymətləndirir.

Danışıqlarda irəliləyiş ABŞ və Rusiya liderləri arasında gələcək görüş üçün ilkin şərtlər yarada bilər. Dmitri Peskovun dediyi kimi, Moskva güman edir ki, Vladimir Putinlə Donald Tramp arasında mütləq görüş baş tutacaq. Gələcək razılaşmaları rəsmiləşdirmək lazım ola bilər, amma bunun vaxtı hələ çatmayıb. "Biz hamımız Trampın kifayət qədər sərt və düz ritorikasına öyrəşmişik. Eyni zamanda, o, sülh yolu ilə nizamlanmanı asanlaşdırmaq üçün mümkün olan hər şeyi etmək niyyətini təsdiqləyir", - Dmitri Peskov bildirib.

Öz növbəsində, Ukrayna tərəfi tamamilə fərqli problemi həll edir: o, konstruktiv dialoqa hazır olduğunu nümayiş etdirmək istəyir, lakin qarşı tərəfin "danışıq apara bilməməsi" səbəbindən belə bir dialoq mümkün deyil, bundan Qərb Kiyevə hərbi yardımı artırmaq və Moskvaya siyasi və iqtisadi təzyiqi artırmaq lazım olduğu qənaətinə gəlməlidir.

Nəhayət, Rusiya-Ukrayna danışıqlarının davam etdirilməsi iyulun 14-də Rusiyaya təqdim etdiyi 50 günlük ultimatumuna baxmayaraq, Ukraynada siyasi və diplomatik nizamlanmaya sadiqliyini təsdiqləyən prezident Tramp üçün də zəruridir. Ağ Evin mətbuat katibi Caroline Levittin bazar ertəsi verdiyi məlumata görə, prezident Tramp "Rusiya və Ukraynada müharibəyə son qoymaq üçün fəal işləməyə davam edir".

**V.VƏLİYEV**



**Elçin Bayramlı**

# Canlı efirdə kolbasa yemək olarmı?

***Kolbasa, sosiska məhsullarının istehlakı ildən-ilə artır. Ərzaq qiymətlərinin artması bir çoxlarını öz ərzaq səbətinə yenidən baxmağa vadar etsə də, emal olunmuş ət məhsulları öz mövqelərini itirmir. Bu, gündəlik həyatda sürətli qəlyanaltı və əksər bayramların məcburi atributudur.***

Mağazaların piştaxtalarda həm yerli, həm də xaricdən gətirilən kolbasalar var. Qiymət diapazonu genişdir, lakin məlum səbəblərdən əksəriyyət ucuz qiymət seqmentinə üstünlük verir, baxmayaraq ki, belə məhsullarda yaxşı heç nə olmadığını və ola da bilməyəcəyini başa düşürlər. Əlbəttə, bahalı kolbasa da faydalı deyil, lakin nisbi götürdükdə tərkibi daha yaxşıdır. Bu yaxınlarda Qida Təhlükəsizliyi Agentliyi kolbasa məhsullarının keyfiyyətinə dair monitorinqin nəticələrini açıqlayanda məlum oldu ki, bir çox kolbasalarda üzərində qeyd edilmiş mal əti əvəzinə toyuq ətidir, bəzilərində isə ümumiyyətlə ət yox idi.

Ət bazarında periodik olaraq mənşəyi məlum olmayan ətlərə və ölmüş heyvanların ətinə rast gəlinir və çox vaxt ondan kolbasa istehsalı üçün istifadə olunur.

Bundan başqa, kolbasalara yan məhsullar- sümüklər, dəri, GMO soya, nişasta, hər cür ləzzət artırıcılar, boyalar, konservantlar vurulur ki, bunlar leş ətindən daha təhlükəlidir.

Bir kiloqram kolbasa, sosiska bir kiloqram ətdən 2 dəfə ucuz olanda sual doğurmaya bilməz. Burada əsas xammalın- ətin xərcindən başqa, məhsulun maya dəyərinə əlavə olunan istehsal, nəqliyyat, vergilər, işçilərin əmək haqqını, satış dividentini də nəzərə almaq lazımdır. Üstəlik, şirkət qazanc da əldə etməlidir. Bu o deməkdir ki, siz məsələn, 10 manata kolbasa alırsınızsa, demək onun ilkin maya dəyəri 5 manatdır.

Vicdansız istehsalçılara qarşı pul cəzalarını təsirli adlandırmaq olmaz. Çünki onlar cərimənin məbləğindən 10 dəfə çox qazanırlar. Bizə işləyəcək mexanizmlər lazımdır. Maraqlıdır, kolbasa dükanlarının sahiblərinə öz məhsullarını canlı yemək təklif olunursa, bunu edəcəklərmi? Mən təklif edirəm ki, televiziyaların birində bir canlı yayım verilişi təşkil olunsun, kolbasa sexlərinin sahibləri hər gün bir dəfə orada öz məhsullarını yesinlər və əhali də baxsın. Amma kolbasa mağazalardan alınmalı, özləri ilə gətirməməlidirlər. Əminəm ki, bunu etməzlər, heç bir kolbasa istehsalçısı öz məhsulunu yeməz.

Bəs belə isə, əhaliyə bu məhsulları necə yedirdirlər? Çox rahat. Bazar iqtisadiyyatı yalnız gəlir əldə etməyə hesablanıb. Necə deyərlər, biznesin vicdanı olmur. İstehsalçını, sahibkarı yalnız bir məsələ maraqlandırır- daha çox qazanc əldə etmək. Əhalinin sağlamlığı, filanı lazımsız məsələlərdir. Vicdan anlayışı isə biznesdə yoxdur.

Burada yeganə təsirli üsul belə müəssisələr üzərinə şəffaf və daimi nəzarət mexanizminin qurulması, medianın və ictimai təşkilatların nəzarətinin təmin edilməsidir. Bunun üçün ölkədə müstəqil laboratoriyalar olmalıdır. İstənilən istehlakçı məhsulu laboratoriyada yoxlada bilməli və zərərli olduğunu görərsə istehsalçını məhkəməyə verib ağır təzminat ödətdirməlidir. Əksər ölkələrdə belədir. Məhz bu səbəbdən, başqa ölkələrdə saxta və keyfiyyətsiz məhsul istehsal etmək sadəcə olaraq sərf etmir, çünki təzminat qazancdan dəfələrlə artıq olur.

Nə qədər ki bizdə belə sistem qurulmayıb, istehsalçılar əhaliyə hər cür təhlükəli zir-zibili qida adına yedirəcəklər. Nəticədə genefondumuz sıradan çıxacaq, ölkə ağır xəstələrlə dolacaq. Bu isə artıq milli təhlükəsizlik məsələsidir. Qida terroru hazırda ən amansız terror vasitəsidir və buna qarşı dövlət və cəmiyyət birgə döyüşməlidir.

# Zəngəzur dəhlizinin bərpası Qərbi Azərbaycana qayıdışı sürətləndirəcək




"Mən inanıram ki, bizim bölgədə hər şey Azərbaycan xalqının xeyrinə dəyişəcək, xalqımız gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağını, doğma dağlarını, bulaqlarını, çaylarını, ata-babalarının qəbirlərini görəcəkdir. Mən buna heç şübhə etmirəm" sözləri ilə soydaşlarımızın ata-baba yurdu Qərbi Azərbaycana qayıdacaqlarına inamını ifadə edən Ulu Öndər Heydər Əliyevin bu istəyinin reallaşması bütünlükdə xalqımızın ən ümdə arzusudur. Qərbi Azərbaycan İcmasının yaradılması, Qayıdış Konsepsiyasında nəzərdə tutulan məqsədlərin həlli istiqamətində işlərin sürətləndirilməsi, ən əsası isə Zəngəzur dəhlizinin açılması ilə bağlı real danışıqların intensivləşməsi prosesin həllinə inamı artırır. Şübhəsiz ki, hər bir azərbaycanlının şüurunda Qərbi Azərbaycan torpaqlarının xatirəsi qorunub saxlanılır. Bu baxımdan Qərbi Azərbaycana qayıdışla bağlı görülən işlərdə elliklə iştirak hər bir vətəndaşımızın mənəvi borcu, ən ümdə arzusudur. Qayıdış Konsepsiyasına uyğun olaraq Qərbi Azərbaycanla bağlı həqiqətlərin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirilir və bir sıra ölkələrdə forumlar təşkil edilir.

Ermənistanın işğalından azad edilən torpaqlarımızda aparılan böyük quruculuq işlərinin, keçmiş köçkünlərin doğma evlərinə Böyük Qayıdışının sürətlənməsi, Xankəndi, Xocalı, Laçın və digər rayonlarda xarici qonaqları belə heyrətləndirən bərpa işlərinin sürətlənməsi növbəti hədəf olan Qərbi Azərbaycana qayıdışın beynəlxalq səviyyədə dəstəklənməsi ümidlərini daha da artırır. İrəvanın və Zəngəzurun Ermənistana verilməsinin tarixi ədalətsizlik, xəyanət, bağışlanılmaz səhv olduğunu dəfələrlə qeyd edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev haqlı olaraq bildirir ki, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, bu tarixi silmək istəyənlər niyyətlərinə çata bilməyəcəklər.

Qafqaz Müsəlmanları İdarəsinin ( QMİ) Qazilər Şurasının geniş tərkibdə keçirilən iclasında İrəvan qazılığı ilə bağlı Əsasnamənin qəbul olunması dövlətlə din arasında münaqişənin daha da gücləndiyi Ermənistanda şok vəziyyət yaradıb. "2020-ci ilə qədər kilsə rəhbərləri ilə görüşdə onlar özlərini qalib kimi göstərir, bizə istehza ilə baxırdılar . Bu məni də incitdiyi kimi, Azərbaycan xalqını da incidirdi. Mən indi qalib xalqın şeyxülislamıyam və bununla qürur duyuram. Bu yaxınlarda biz İrəvan qazılığını bərpa etdik. İnşallah o torpaqlara da gedəcəyik, məbədlərimizi, ziyarətgahlarımızı, məscidlərimizi bərpa edəcəyik, din xadimlərimiz orada fəaliyyət göstərəcək" sözləri ilə haqq işimizin qalib gələcəyini bildirən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə bu cür tədbirlərin davamlı olacağını da açıqlayıb.

21-22 iyun 2025-ci il tarixlərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının İstanbul şəhərində keçirilən 51-ci sessiyasında Qərbi azərbaycanlılarla bağlı məsələnin müzakirəsi, soydaşlarımızın haqq səsinə dəstək verilməsi daha bir həmrəylik nümunəsi, əlamətdar hadisə kimi tarixə yazıldı. Həmin sessiyada Azərbaycanın ədalətli mövqeyinə dəstək naminə müxtəlif mövzuları əhatə edən qətnamələr qəbul olunub. Sessiyanın yekunlarına dair "İstanbul Bəyannaməsi""nin, Qərbi Azərbaycan İcması ilə bağlı qətnamənin qəbulu ata-baba yurdlarından zorla qovulmuş soydaşlarımızın haqqı səsinə dəstək idi. İƏT çərçivəsində ilk dəfə olaraq qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ"" adlı qətnamədə təşkilata üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunur, Ermənistan tərəfindən sözügedən İcmanın hüquqlarının, soydaşlarımızın doğma torpaqlarına qayıdışının inkar olunması qınanılır. Qeyd edilən qətnamə ilə yanaşı, "İstanbul Bəyannaməsi""ndə Azərbaycan və Ermənistan arasında normallaşma prosesində əldə olunan irəliləyişlər alqışlanır. Ermənistan sülh müqaviləsinin imzalanmasına mane olan əngəllərin aradan qaldırılmasına çağırılır. Bəyannamədə, həmçinin Ermənistanın təcavüzü nəticəsində öz yurdlarından didərgin düşən məcburi köçkünlərin ləyaqətli geri qayıdışını təmin etmək istiqamətində Azərbaycanın yenidənqurma və minatəmizləmə səylərinə dəstək ifadə edilir. İndiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənir və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi pislənilir. "1992-ci il Xocalı qətliamı qurbanları ilə həmrəylik"" adlı qətnamədə Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci ilin fevralında Xocalıda, habelə Azərbaycanın digər ərazilərində törədilən müharibə cinayətləri, soyqırımlar bəşəri dəyərlərə xəyanət adlandırılır.

Bu günlərdə İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən 17-ci Zirvə görüşündə xalqımıza olan ethiramı "Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunması yüksək qiymətləndiririk" sözləri ilə ifadə edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.

Müasir dövrümüzü "dəhlizlər müharibəsi" adlandıranların sözlərində həqiqət vardır. Müharibələrin, milli münaqişələrin davam etdiyi, xüsusilə Avropa ölkələrinin enerji ilə təminatında ciddi maneələrin yarandığı indiki zamanda qitələri birləşdirən qlobal nəqliyyat dəhlizlərinə də ehtiyac artmaqdadır. Bu baxımdan Çinin "Bir kəmər, bir yol" layihəsinin ortaq nöqtəsi olan Orta Dəhlizə artan maraq təbiidir. Orta Dəhlizin davamı kimi Zəngəzur yolunun bərpasını beynəlxalq səviyyədə dəstəkləyənlərin sayı artmaqdadır. Bu yolun bərpasının Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının əsas istiqamətləri kimi diqqətdə saxlanılması da təsadüfi deyil.

Ermənistanın baş naziri Nikol Paşinyanın Ankara səfərindən sonra Prezident İlham Əliyevlə Əbu-Dabidə təşkil olunan ikitərəfli görüşdə də əsas müzakirə mövzusu Zəngəzur dəhlizinin bərpası olmuşdur. Ermənistan müxalifətini, rusiyameylli qüvvələri də narahat edən Paşinyanın Azərbaycanın və Türkiyənin Zəngəzurla bağlı təkliflərinə isti yanaşmasıdır. Siyasətçilərin də bəyan etdikləri kimi, Zəngəzur dəhlizinə nəzarətdə maraqlı olan ABŞ-ın və Türkiyənin bu şansı qazanmaları Rusiyanın Cənubi Qafqazdan uzaqlaşdırılması deməkdir. Artıq Ermənistantanda da aydın başa düşürlər ki, Azərbaycanla bağlanacaq sülh sazişi təkcə iki ölkənin deyil, bütünlükdə bölgənin, Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyi, sabitliyin təminatı baxımından önəmli, aktuallığını qoruyan məsələdir. Bəllidir ki, sülh sazişinin imzalanması üçün Azərbaycanın real şərtləri var. Ermənistan əvvəlcə öz konstitusiyasını dəyişdirərək qonşu ölkələrə qarşı ərazi iddialarını əks etdirən maddələri çıxarmalı, Minsk qrupunun ləğvini tələb edən Azərbaycanla birlikdə ATƏT-ə müraciət etməlidir. Yəni, bu iki şərt yerinə yetirilmədən yekun sülh sazişinin imzalanması mümkün deyil".

İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zrvə görüşündən sonra Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunda Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh sazişinin başlıca şərtlərindən olan Zəngəzur dəhlizi ilə bağlı məqamlara aydınlıq gətirilməsi də təsdiqləyir ki, bu ifadə artıq beyənlxalq termindir.

Rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunmuş, 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrinin iştirak etdikləri III Şuşa Qlobal Media Forumu dialoq, şəffaflıq və daimi inkişaf edən media mühitində əməkdaşlığa yönələn mühüm hadisədir. Forumda bir daha təsdqləndi ki, Qlobal Cənubun ayrılmaz tərkib hissəsi olan Azərbaycan qitələrarası körpü rolunu uğurla davam etdirir. Adı media forumu olsa da dünyada baş verən siyasi, iqtisadi hadisələrin müzakirə olunduğu platformaya çevrilən, dörd saata yaxın davam edən tədbirdə sualları məntiqli açıqlamaları ilə cavablandıran Prezident İlham Əliyev növbəti dəfə alternativsiz lider olduğunu təsdiqlədi. Zəngəzur dəhlizinə ABŞ-ın nəzarəti məsələsi ilə bağlı sualını "Amerika şirkətinin Zəngəzur dəhlizini bir növ icarəyə götürməsi ilə bağlı sualınıza gəldikdə bu, Ermənistan rəhbərliyinə ünvanlanmalıdır. Bizim ərazidə heç bir operator, heç bir ticarətçi, heç bir icarədar ola bilməz. Ermənistan nə etmək istəyir? Onlar çox şey edə bilərlər, mənim bundan xəbərim yoxdur. Onlar artıq dırnaqarası "Avropa müşahidəçiləri"ni də sərhədə dəvət ediblər. Onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar. Xüsusilə də bu son İran-İsrail münaqişəsi zamanı onlar İran sərhədi boyu hərəkət edirlər. Düzdür, onlar binokl vasitəsilə bizə də baxırlar, ancaq biz də öz ərazimizdən onları izləyirik. Sabah Ermənistan istənilən ölkəni, tərəfi də dəvət edə bilər. Bizim üçün isə ən başlıca məsələ odur ki, - mən Əbu-Dabidə həmkarıma dedim, - bizim Azərbaycandan Azərbaycana maneəsiz və təhlükəsiz keçidimiz olmalıdır. Bu, Azərbaycanın bir bölgəsindən ölkənin digər bölgəsinə keçiddir. Bizim yüklər və bizim vətəndaşlar, Azərbaycan vətəndaşları hər dəfə orada sərhədçi erməninin simasını görməli deyil. Budur bizim tələbimiz. Bu, legitim tələbdir, bu, ədalətli tələbdir. Əks təqdirdə bizim vətəndaşlarımız təhlükə altında olacaqdır. Mən yaxşı xatırlayıram, sovet dövründə qatar Bakıdan Naxçıvana hərəkət edərkən məhz Ermənistan ərazisindən Zəngəzurdan keçən bir hissədə qatara daş atılırdı, nəticədə qatarın pəncərələri qırılırdı. Biz bunu çox yaxşı xatırlayırıq və bu, sovet dövrü idi. Bu nizam-intizam və cəza mexanizmlərinin hökm sürdüyü bir dövrdür. Bu gün biz vətəndaşlarımızı riskə ata bilmərik. Ona görə orada heç bir fiziki təmas olmalı deyil və onlar üçün təminatlı tədbirlər həyata keçirilməlidir ki, insanlar və yüklər təhlükəsiz şəkildə hərəkət etsin. Bu, legitim tələbdir" sözləri ilə cavablandıran Prezident İlham Əliyev bir daha vurğuladı ki, bu dəhlizin bərpası regional deyil, beynəlxalq əhəmiyyətli məsələdir.

***Xuraman İsmayılqızı***

# Fransa hakimiyyətinə ağır zərbə

## Hazırda məhkəməsi keçirilən fransız casusu Martın Rayanın atası Riçard Rayan oğlunun Fransa hakimiyyəti tərəfindən istifadə edildiyini bildirib

***Avropanın Fransa, Belçika, Almaniya, Niderland və digər dövlətləri dərin iqtisadi, siyasi böhran keçirirlər. Daxili siyasətdə olduğu kimi xarici siyasətdə də həlli mümkün olmayan problemlər yaşayırlar. Səbəbi isə hakimiyyətdə olan faşist düşüncəyə və təfəkkürə sahib rəhbərlərin səhv, yanlış siyasət yürütmələri, eləcə də dünyanın azad, demokratik dövlətlərinə qarşı şər və böhtan xarakterli ədalətsiz mövqe sərgiləmələridir. Azərbaycana qarşı sözügedən dövlətlərin nümayiş etdirdikləri qərəzli siyasət qeyd olunanlara misal ola bilər.***





44 günlük Vətən müharibəsində Azərbaycan 30 illik erməni işğalına son qoyub, ərazi bütövlüyünü bərpa etdikdən sonra Fransa, Belçika, Almaniya, Niderland ölkəmizə qarşı açıq “informasiya müharibəsi” təşkil etdilər. Sözügedən ölkələrin KİV-ləri və erməni lobbisindən maliyyələşən hakimiyyət nümayəndələri, parlamentlərin deputatları Azərbaycan haqında şər və böhtan xarakterli açıqlamalar verir, videolara paylaşırlar. Xüsusilə də Fransanın prezidenti Makron başda olmaqla deputat korpusu, dərnək düşüncəsindən uzağa getməyən KİV təmsilçiləri daha çox hədəf seçiblər. Ən ikrah doğuran hal ondan ibarətdir ki, Fransa Azərbaycana qarşı separatçı fəaliyyətini beynəlxalq təşkilatlarda ölkəmizə qarşı qərəzli qətnamələr qəbul etdirməklə nümayiş etdirir. Bu azmış kimi bacısı hesab etdiyi Ermənistanı müasir hücum silahları ilə təchiz edərək regionumuzda militarizasiya siyasətini həyata keçirir.

### Fransa kəşfiyyatı Azərbaycanda peşəkar casus şəbəkəsi yerləşdirib

Diqqətçəkən məqam ondan ibarətdir ki. Fransa Azərbaycana qarşı qərəzli siyasətini ölkəmizin daxilində casus şəbəkəsi yerləşdirməklə daha geniş formada davam etdirməyə çalışır. Daha doğrusu, artıq Fransanın Azərbaycanda kəşfiyyat fəaliyyəti qurmağa çalışdığı və casus şəbəkəsi yerləşdirdiyi faktları mövcuddur. Hələ bir qədər əvvəl Ukraynanın “İdentifikator” nəşri ciddi və əsaslı mənbələrinə istifadən qeyd etmişdir ki, Fransa kəşfiyyatı Azərbaycanda peşəkar casus şəbəkəsi yerləşdirib: “Həmin şəbəkə Fransanın Azərbaycandakı səfirliyinin tərkibində fəaliyyət göstərir və Fransanın sözdə “tərəfdaş” adlandırdığı ölkələrin nümayəndələrinə qarşı kəşfiyyat fəaliyyəti həyata keçirir”. Nəşr iddia edir ki, sözügedən şəbəkənin geniş əlaqələrinin olduğu, region ölkələrində təsir dairəsini genişləndirməyə hazırlaşdığı vurğulanır: “İstintaq məlumatlarına görə, uzun illər Fransa kəşfiyyatının əməkdaşı olmuş şəbəkə üzvlərindən biri könüllü olaraq Azərbaycanın hüquq-mühafizə orqanları ilə əməkdaşlığa başladıqdan sonra şəbəkə üzvlərinin kimlikləri ortaya çıxıb. Bu əməkdaşlıq nəticəsində bəziləri Azərbaycanda xidmət etmiş və hələ də fəaliyyətdə olan, bəziləri isə hazırda bir sıra qonşu dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən onlarla fransalı agent ifşa edilib. Bununla yanaşı, Azərbaycan xüsusi xidmət orqanlarına Fransanın agentura şəbəkəsinin Cənubi Qafqaz, Yaxın Şərq, Ukrayna və Moldovadakı fəaliyyəti ilə bağlı sübut və sənədlərin təqdim edildiyi bildirilir”.

Nəşrin məlumatında qeyd olunur ki, Azərbaycanın xüsusi xidmət orqanlarının apardığı cinayət işi ilə bağlı Ukrayna, Gürcüstan və Azərbaycana qarşı bir sıra kəşfiyyat fəaliyyəti həyata keçirmiş şəxslər həbs edilib. “Casus şəbəkəsinin ifşa olunması Fransa kəşfiyyatının imicinə ciddi zərbə vuracaq”.

Ukraynanın “İdentifikator” nəşrinin qeydlərindən bir qədər sonra Azərbaycan ictimaiyyətinə ölkəmizdə Fransanın casus şəbəkəsinin saxlanılması barədə məlumat açılandı. Casus şəbəkənin əsas başçısının isə Fransanın xüsusi xidmət orqanlarının peşəkar əməkdaşı, polkovnik-leytenant Martin Rayandır. Onun Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən ifşa olunaraq, həbs edilməsi Fransa siyasi hakimiyyətinin belini qırıb. Çünki Martin Rayan Fransa üçün önəmli fiqur hesab edilir. Məhz önəmli agentin ifşa edilməsindən sonra Fransanın kəşfiyyat orqanlarında ciddi dəyişikliklər, hətta istefalar baş verib.

Fransa vətəndaşı Martın Rayanın atası Riçard Rayan oğlunun Fransa hakimiyyəti tərəfindən istifadə edildiyini bildirib. Riçard Rayan ”Agence France-Presse” (AFP) agentliyinə açıqlamasında oğlu Martin Rayanın bir dəfə ona Fransa hakimiyyət orqanlarının ondan istifadə etdiklərini danışdığını söyləyib.

### Martın Rayanın Fransa xüsusi xidmət orqanının əməkdaşı Loran Lödi ilə görüşü

Açıq mövqeyi, səmimi etirafı ilə Martın Rayanın atası Riçard Rayanın bir qədər əvvəl Bakıdan qovulmuş iki diplomata işarə edib, Təsdiq olunur ki, Fransa dövləti, onun kəşfiyyat orqanları Azərbaycanda geniş casusu şəbəkə yaradıb və onlardan öz çirkin məqsədləri üçün istifadə edirlər. Lakin Azərbaycan hər cür təzyiq və təhdidi dəf etməyə, casus şəbəkəni ifşa etməyə qadirdir. Bunu Martın Rayanın və dəstəsinin həbs edilməsi ilə bir daha nümayiş etdirdi. 2023-cü il dekabrın 4-də həbs olunublar. DTX tərəfindən ”Merkorama” MMC-nin baş direktoru olan Martin Ryana qarşı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi üzrə ittiham irəli sürülüb. İttihama görə, Martin Ryan onu məxfi əməkdaşlığa cəlb edən, sonradan Bakıdan ”arzuolunmaz şəxs” elan edilərək qovulmuş Fransanın DGSE (Xarici Təhlükəsizlik Baş İdarəsi) əməkdaşları tərəfindən agent-casus kimi istifadə edilib. Həmin cinayət işi üzrə Martin Rayanla yanaşı, Azərbaycan Respublikasının vətəndaşı Azad Məmmədliyə Cinayət Məcəlləsinin 274-cü maddəsi (dövlətə xəyanət) ilə ittiham irəli sürülüb. Hazırda casus şəbəkəsinin məhkəməsi keçirilir və dəstə üzvləri bir sıra etiraflar səsləndirirlər. Ötən gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən Martin Rayan əlavə ifadə üçün söz istəyib. Onun ifadəsindən məlum olub ki, o, Fransanın xüsusi xidmət orqanlarının əməkdaşı olan Frederik Devos ilə ”Araz” kafesində görüşüb, daha sonra gəzintiyə çıxıblar. Həmin görüşdə Azərbaycan-Ermənistan müharibəsi müzakirə olunub. Frederik onlardan Türkiyədən və Pakistandan olan muzdlu döyüşçülərin Azərbaycan üçün vuruşub-vuruşmadığını soruşub. M.Rayan internetdən oxuduqları əsasında sualları cavablandırıb. Daha sonra M.Ryan şirkət açmaq üçün dəstək istəyib. Frederik Devos bununla bağlı yüksəkvəzifəli şəxslərdən kömək istəyəcəyini bildirib. F.Devos fransız dilini bilənlərlə əməkdaşlıq etmək istədiyini söylədiyi üçün Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetində oxuyanlarla maraqlanıb. Martin Rayan onu Azad Məmmədli ilə tanış edib. Daha sonra Azad Məmmədli azərbaycanlı tanışı A.Ş-ni Frederik Devosla tanış edib.

Bundan bir müddət sonra Martin Rayanın valideynləri onu ziyarətə gəliblər. Cinayət işinə əlavə edilən, onun telefonu vasitəsilə çəkilmiş fotoşəkillərdə göstərilib ki, Martin Rayan, atası, anası, dostları və Fransa xüsusi xidmət orqanının əməkdaşı Loran Lödi, onun yoldaşı və qızı ilə əvvəlcə özünün Səbail rayonunda kirayə qaldığı evdə görüşüb, daha sonra ziyafətə gediblər. Həmin ərəfələrdə Loran Martinə klaviatura hədiyyə edəcəyini bildirib. Səfirliyin yanında o, klaviaturanı hədiyyə edib.

Bundan əlavə, başqa bir şəkildə əvvəllər Fransada təhsil almış azərbaycanlı Z.M.-in doğum gününü qeyd etmək üçün Martin Rayan, Loran və digərlərinin yığışdığı məclis əks olunub. Həmin şəkillər məhkəmə zalında nümayiş etdirilib.Həmin ilin mart ayının sonunda Jerom adlı şəxs Lorandan Martin Rayanın nömrəsini alıb və onunla danışıb. Jerom da Fransa xüsusi xidmət orqanlarının əməkdaşı olub. Bundan başqa Frederik Devos Azad Məmmədlini görüşə dəvət edib. Martin Rayan Azad Məmmədli ilə birgə fransız iş adamı Serj Banvelin 2019-cu ilin oktyabr ayında Bakı Frankofoniya Assosiasiyasının təşkil etdiyi tədbirdə iştirak ediblər. Frederik və onun səfirlikdə işləyən yoldaşı onları belə tədbirlərdə daha çox iştirak etməsi üçün təşviq ediblər. Onlar daha sonra bir neçə dəfə belə tədbirlərdə iştirak ediblər.

### Martin Rayanın Loran Lödini və digərləri ilə əlaqələri

İstintaq materiallarına görə, Martin Rayan Loran Lödini və digərlərini Milad bayramında özünün evində ziyafətə dəvət edib. Lakin bu hadisələrdən sonra Loran ilə əlaqə saxlaya bilməyib. O, onların dost olduğuna inanırmış. Amma anlayıb ki, Loran kəşfiyyatçı olub və ondan sadəcə istifadə edib. Azad Məmmədli də Loranın onunla deyil, Azərbaycanın daxili məsələləri ilə maraqlandığını anlayıb, kafedə söhbət edərkən ətrafdakılara şübhə ilə baxdığını və ona diqqətlə qulaq asdığını görüb, onun kəşfiyyatçı olmasından şübhələnib. Həmin ildə bir azərbaycanlı jurnalist Martin Rayanla əlaqə saxlayıb və müsahibə alıb. Jurnalist həmin müsahibəni video şəklində istəyib. Belə bir neçə jurnalist onunla əlaqə saxlayıb və Fransanın Azərbaycan-Ermənistan müharibəsində mövqeyi ilə bağlı fransız kimi mövqeyini öyrənib. Belə müsahibələrə və yayılan məqalələrə görə M.Rayan Fransa xalqının gözündən düşüb və bu, ona bir fransız kimi ağır gəlib. Martin Rayan bundan əlavə Z.M.-in Loran Lödi tərəfindən xüsusi xidmət orqanının ofisinə çağırılmasından şübhələnib.Martin Ryan Loran Lödidən və Frederik Devosdan sonra onunla Jerom Qassarinonun işlədiyini və sonuncunun ona Azərbaycanda şirkət açmaqla bağlı, həmçinin Azərbaycan-İran münasibətləri və özünü maraqlandıran şəxslər barədə suallar verdiyini deyib. Bir müddət sonra Martin Rayan Azad Məmmədli ilə görüşmək istəyi ilə bağlı telefon danışığı edib və səfirliyin yanında olmasını bildirib. Buna səbəb Frederik və digərlərinin kəşfiyyatçı olaraq ona tapşırıq verdiyini düşünməsi olub.

Məhkəmənin qərarı ilə, əldə edilən telefon danışığında M.Rayanın Azad Məmmədliyə tövsiyə olaraq içkinin miqdarını azaltmasını və danışdıqlarına fikir verməsini söyləyib. Ona səviyyəli tədbirlərdə yüksək səslə müəyyən mövzulardan danışmamasını, ehtiyatlı olmasını, nüfuzunu zədələməməsini söyləyib. Səhv anlaşıla biləcək mövzulardan ehtiyatlı olmasını istəyib.

Martin Rayan Azad Məmmədli ilə danışarkən səfirlikdə Loran soyadlı iki şəxsin olduğunu bildirib. Martin Loran Lödini xatırlayıb və onun sağollaşmadığını söyləyərək Azərbaycandan getdiyini deyib. O əlavə edib ki, Loran Lödi və Loran Qrard ondan və Azaddan məlumat almaq üçün istifadə ediblər. Azad Məmmədli kəşfiyyatçıların dəyişdiyini, yenilərinin dərhal onunla əlaqə yaratdığını bildirib. Azad Məmmədli onların səmimi ünsiyyətdən uzaq olduqlarını da əlavə edib. Kəşfiyyatçılar onları maraqlandıran məlumatları Martin Rayandan və xüsusilə də Azad Məmmədlidən təhlil şəklində alıblar. Martin Rayan Rusiya pasportlu ermənilərin Qarabağı tərk etməsi informasiyasını da ötürüb.

Başqa telefon danışığında Azad Məmmədli Martin Rayana bildirib ki, Zəngəzur dəhlizində Rusiyanın Federal Təhlükəsizlik Xidmətini yox, Fransanın silahlı qüvvələrini görmək istəyir. Daha sonra Martin deyib ki, Loran Qrardın kəşfiyyatçı olduğunu ruslara desə, necə olar? Azad Məmmədli bunun təhlükəli olacağını bildirib. Azad Məmmədli həmçinin əlavə edib ki, özlərini agent deyil, mənbə kimi görür.

Fransa casus şəbəkəsinin ifşa edilməsindən sonra bir daha təsdiqlənir ki, Azərbaycanda və beynəlxalq aləmdə ölkəmizin maraqlarına qarşı çıxmaq, mövqelərinə kölgə salmaq mümkün deyil. Çünki Azərbaycan hər sahədə böyük gücə və qüdrətə malik dövlətdir.

**İLHAM ƏLİYEV**

# Beynəlxalq ictimaiyyətin siyasi təfəkkürünü ayıldan fikirlər

Prezident İlham Əliyevin "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda keçirilmiş III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündəki çıxışı ətrafında aparılan müzakirələr səngimir. Artıq bu gün çəkinmədən deyə bilərik ki, sözügedən tədbir beynəlxalq münasibətlər sistemində böyük və əlamətdar hadisəyə çevrilib. Müzakirələr zamanı səsləndirilmiş fikirlərin məzmununa görə Forum hətta yeni dövrün və yeni reallığın rəmzlərindən birinə çevrilməkdədir. Tədbirlə əlaqədar qlobal internet məkanında görə bildiyimiz bəzən hətta isterik olan şərhlər ondan xəbər verir ki, Forum öz siyasi hədəfinə, cənab Prezidentin mühüm mesajları isə öz ünvanına çatıb. SİA xəbər verir ki, bu fikirləri politoloq Asif Adil söyləyib.

Politoloq qeyd edib: "Bəli, Forumla əlaqədar təhlillər aparılmalı və mürəkkəb məqalələr də yazılmalıdır. Kənardan baxanda asan gələn mühüm nailiyyətlərin arxasında dayanan titanik əməyi və inanılmaz iradəni hamı görməli, hiss etməlidir. Unutmayaq ki, analitikanın məhdudluğu boşboğaz demaqogiyanın inkişafı üçün münbit şərait yaradır. Təkrarlasaq da deməliyik ki, böyük siyasət böyük təbliğatın aparılmasını tələb edir. Mühüm uğurların gələcək taleyi ucuz demaqogiyanın öhdəsinə buraxılmamalıdır".




Müəllif bildirib ki, heç şübhəsiz, Azərbaycan Prezidenti tərəfindən Forumda səsləndirilmiş bəzi fikirlər beynəlxalq ictimaiyyətin siyasi təfəkküründə şok effektin yaranmasına səbəb olub. Bu şok hələ uzun müddət "elektrik cərəyanı" kimi bəzi beynəlxalq təşkilatların dəhlizlərində dövr edəcək. Onilliklər ərzində siyasətdə qlobal dəbi və tendensiyaları diktə edən tərəflər özləri haqda acı həqiqəti eşitməyə alışmayıb. Onlar qlobal hakim roluna elə giriblər ki, taxdıqları hakim maskası artıq üzlərinə yapışıb.

Məsələn, dövlətimizin başçısının "Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər... İqlim dəyişmələri ekzistensional əhəmiyyət daşıyan, inkişaf edən kiçik dövlətlərə gəldikdə, onlara güclü dəstək lazımdır" kimi fikirləri, əslində, dünyada qlobal ekoloji böhrana görə "supergüclər" arasında məsuliyyət bölgüsünün aparılmasına dair açıq çağırışdır. Əlbəttə ki, bu cür fikirlərin səsləndirilməsi üçün güc və iradə tələb olunur. Belə fikirlər dünyada Azərbaycana qarşı həm münasibətin məzmununu, həm də ölkəmizin beynəlxalq statusunu dəyişir.

Qlobal təşkilatların rəhbərliyində təmsil olunan və həmin təşkilatlar üçün ssenari yazanların analoji bəyanatlara reaksiyaları bəllidir. Təsadüfi deyil ki, Azərbaycan vaxtaşırı qərəzli informasiya hücumlarına məruz qalır. Prezident öz çıxışında sözügedən faktı açıq şəkildə etiraf edərək dedi: "... Qərbin ictimai rəyi və Qərb mediasının təsiri Azərbaycana gəldikdə çox mənfi və ədalətsizdir". Əslində, açıq şəkildə səsləndirilmiş sözügedən fikrin siyasi interpretasiyası odur ki, "mən pislik etmək istəyən tərəfləri tanıyıram və onların əməlləri haqqında məlumatlıyam". Siyasətdə məlumatlı olmaq isə rəqibi tərk-silah etmək deməkdir.

Prezident İlham Əliyevin növbəti sözləri isə müasir beynəlxalq münasibətlər sisteminin əxlaq fəlsəfəsini aşkar edir: "Güvənmək razılaşmaq demək deyil, etimad göstərmək nədənsə müəyyən dərəcədə narazı olmaq və ya müsbət gündəmdən başqa bir şeyə sahib olmaq demək deyil. Güvənmək, sadəcə olaraq, inanmaq deməkdir ki, əgər bir insan bunu deyibsə, deməli belə olacaq". Bununla da dövlətimizin başçısı "etimad" məfhumunu təkrarən qlobal siyasətə qaytarmış olur. Hamımız çox gözəl bilirik ki, "etimad" olmayan yerdə münasibətlər dalana dirənəcək. Məhz bu səbəbdən də müasir dünyamızda münaqişələrin sayı durmadan artır.

Ümumiyyətlə, sülhə çağırış Prezident İlham Əliyevin xarici siyasətinin əsas leytmotivlərindən biridir. Prezidentin sülh notlarını biz hətta torpaqlarımız işğal altında olan zaman eşidirdik. Nüfuzlu təşkilatların rəhbərləri beynəlxalq münasibətlər sistemində mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin aktiv təbliği ilə məşğul olan Azərbaycanı "dünya multikulturalizmin ünvanlarından biri" adlandırırdı. Elə buna görə də Prezident öz çıxışında beynəlxalq ictimaiyyətin diqqətinə bir daha onu çatdırdı ki, sülh prosesinin təşəbbüskarı məhz Azərbaycan olmuşdur.

Prezidentin növbəti fikri isə tərs köşə kimi bir çox tərəflərə toxundu və ciddi şəkildə narahat etdi: "Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq". Qafqaz tarix boyu bəzi ölkələrin qlobal geostrategiyalarının mərkəzində dayanıb. Bunun əziyyətini isə hər zaman regionda yaşayan millətlər çəkib. Bu siyasətə "dayan!" və "yetər artıq!" deyən də ilk dövlət başçısı məhz İlham Əliyev olub. Bu, sadəcə, özgüvənin təzahürü deyil, bu, ədalətli mövqeyə və rəhbərlik etdiyi xalqa güvənməyin nəticəsidir. Bu cür yanaşma yalnız böyük siyasətçinin mövqeyi ola bilər. Odur ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevin III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə səsləndirdiyi fikirləri özünün rəsmi "Truth Social" hesabında paylaşması təsadüfi deyil - ali siyasi etirafın təzahürü olan bu mesaj hörmətin təcəssümüdür. Müəllifi Azərbaycan xalqı olan yeni reallığın konturlarını indi daha aydın görə bilirik.

# İxtisas seçimi zamanı bu məqamlara mütləq diqqət edin!

"İxtisas seçimi ali təhsil sisteminin ən həssas mərhələlərindən biridir və bu mərhələdə verilən qərarlar gəncin yalnız universitetdəki təhsil dövrünü deyil, bütöv həyat yolunu müəyyənləşdirir. Təəssüf ki, Azərbaycanda bu proses hələ də planlaşdırılmamış, təsadüfi və bəzən emosional qərarlar üzərində qurulur. Bilik səviyyəsi ilə real bacarıqlar arasında əlaqə qurulmur, qəbul planı əmək bazarının ehtiyaclarına uyğun tənzimlənmir, şagirdlərə peşə yönümlü təlimlər keçilmir və ən əsası, dövlət bu prosesə mariflendirici, strateji və dəstəkləyici müdaxilə etmir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.





Kamran Əsədov sözlərinə belə davam edib: "Mövcud qanunvericilik çərçivəsində ixtisas seçiminin əsasını ali məktəblərin qəbul planı təşkil edir. "Təhsil haqqında" Qanunun 13.2.5-ci maddəsinə əsasən, ali təhsil müəssisələrinin qəbul planı əmək bazarının tələbatı nəzərə alınmaqla hazırlanmalıdır. Lakin faktiki vəziyyət göstərir ki, qəbul planları çox zaman əvvəlki illərin statistikası, universitetlərin daxili maraqları və ya texniki kvotalar üzərində qurulur. Əmək bazarının proqnozları, regional inkişaf prioritetləri, yeni texnoloji tendensiyalar nəzərə alınmır. Nəticədə, hər il yüzlərlə tələbə əmək bazarında tələbat olmayan, gəliri aşağı olan, sosial statusu zəif olan sahələrə yönəlir və dörd il sonra işsiz məzunlar ordusuna qoşulur.

2023-cü ilin rəsmi statistikalarına görə, ali məktəb məzunlarının yalnız 61%-i birinci il ərzində ixtisası üzrə iş tapa bilib. Bu, ali təhsilin nəticə və effektivlik göstəricilərinin zəif olduğunu göstərir. Həmçinin, Dövlət İmtahan Mərkəzinin qəbul statistikalarında da müşahidə olunur ki, bəzi ixtisaslara qəbul olan abituriyentlərin orta balı çox aşağıdır. Bu isə həmin sahələrə marağın və hazırlıq səviyyəsinin zəif olduğunu göstərir. Məsələn, kənd təsərrüfatı, tarix, coğrafiya, ekologiya, kitabxanaçılıq kimi sahələr üzrə yüzlərlə ödənişli yer boş qalır və yalnız minimal balla dolur. Bu, həm planlaşdırmanın qeyri-effektivliyini, həm də abituriyentlərin ixtisas seçiminin məqsədyönlü olmadığını göstərir.

Müsbət tərəf ondan ibarətdir ki, informasiya texnologiyaları, tibb, beynəlxalq münasibətlər, maliyyə və logistika kimi sahələrə maraq yüksəkdir və bu ixtisaslar üzrə qəbul planı tam dolur, bəzən isə tələbat plandan artıq olur. Bu onu göstərir ki, abituriyentlər də müəyyən dərəcədə əmək bazarındakı real vəziyyəti müşahidə edir və seçimlərini həmin istiqamətə yönəldirlər. Lakin burada da sistemli yönləndirmə yoxdur - bu daha çox şəxsi müşahidə, ailə təzyiqi və ya sosial şəbəkə təsiri ilə formalaşır.

Dünya təcrübəsində ixtisas seçimi məktəb səviyyəsində başlayır. Məsələn, Almaniyada şagirdlər 10-cu sinifdən sonra fərqli peşə istiqamətlərinə yönəldilir. Onlara peşə seçimi ilə bağlı testlər keçirilir, psixoloji dəstək verilir, real sektorda təcrübə keçmək imkanı yaradılır. Finlandiyada isə hər məktəbdə peşə-oriyentasiya mərkəzləri fəaliyyət göstərir və şagirdlərin təlim profili maraqlarına və bacarıqlarına uyğun tənzimlənir. ABŞ-da "college counseling" institutu məktəblərlə sıx inteqrasiya olunub və hər bir şagirdə fərdi karyera planı hazırlanır. Azərbaycanda isə nə məktəbdə peşəyönümlü dəstək var, nə də DİM və Elm və Təhsil Nazirliyinin bu sahədə işlək və təsirli mexanizmi mövcuddur.

Elm və Təhsil Nazirliyi ixtisas seçimi prosesini planlamır, idarə etmir və monitorinq aparmır. Qəbul planı universitetlərin təqdim etdiyi göstəricilər əsasında formalaşır və onun əmək bazarına uyğunluğu qiymətləndirilmir. Nazirliyin bu istiqamətdə nə illik hesabatı, nə də proqnozlaşdırma sənədi mövcuddur. Nə qədər ki, nazirlik bu məsələni prioritet saymır, nə qədər ki, ali təhsilin əsas göstəricisi olan "işlə təminat faizi" ilə maraqlanmır, heç bir keyfiyyətli nəticədən danışmaq mümkün deyil.

Dəyişiklik üçün ilk növbədə məktəbdaxili peşəyönümlü xidmət sistemi qurulmalıdır. Abituriyentlər 9-11-ci siniflərdə peşə-oriyentasiya testlərindən keçməli, ixtisaslar haqqında video və praktiki təlimlərdə iştirak etməlidirlər. İkinci mərhələdə qəbul planı əmək bazarı və sosial-iqtisadi strategiya ilə uzlaşdırılmalıdır. Hansı regionda hansı sahəyə ehtiyac varsa, qəbul planı da ona uyğun verilməlidir. Üçüncü vacib istiqamət isə ixtisas seçimi dövründə abituriyentlər üçün virtual və fiziki "Karyera Mərkəzləri"nin fəaliyyətidir. Bu mərkəzlər məlumatlı, elmi əsaslı və fərdiləşdirilmiş məsləhətlər təqdim etməlidir.

Əgər bu dəyişikliklər həyata keçirilməzsə, növbəti illərdə də minlərlə gənc yanlış ixtisaslara yönələcək, universitetləri yalnız "diplom almaq üçün" oxuyacaq, ali təhsil dövlət üçün iqtisadi yükə çevriləcək. İxtisas seçimi plan, proqnoz və maarifləndirmə tələb edir - hazırkı reallıqda isə bu üç sahənin heç biri mövcud deyil. Elm və Təhsil Nazirliyinin bu istiqamətdə fəaliyyətsizliyi yalnız texniki deyil, strateji səhvdir və gənc nəslin gələcəyini risk altına atır".

***Ayşən Vəli***

# Köhnə dostlar fəallaşır

## Rusiya Cənubi Qafqazı sərhədinin problemli sektoruna çevirir




Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlərin nəzərəçarpacaq dərəcədə soyuması, hətta bəzi yerlərdə kəskinləşməsi Cənubi Qafqazda qüvvələr balansına yeni vurğular gətirir. Və region artıq Rusiya üçün etibarlı sərhəd deyil. Ermənilər Qarabağın itirilməsinin günahını Azərbaycan ordusu ilə qarşı-qarşıya gəlməkdən yayınan rus sülhməramlılarının üzərinə qoyur. Ermənistanda isə Rusiya üçün yaxşı gələcəyi olmayan hadisələr baş verir. Həbsdə olan sahibkar Samvel Karapetyan bildirib ki, İrəvan 2020-ci ilin payızında Qarabağda münaqişənin kəskinləşməsindən sonra hələ də malik olduğu güclü danışıqlar mövqelərindən istifadə edə bilmir. Qarabağı Ermənistanla sülhə dəyişən Nikol Paşinyanın təmsil olunduğu İrəvan hakimiyyəti isə Rusiyadan Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olmasında iştirak etməsini gözləmir. Bir gün İranın vəziyyətinə düşməyəcəklərinə əmin deyillər. Lakin müdafiəsiz qalacaqlarına tam əmindirlər.

Eyni zamanda, İrəvan təkcə Bakı ilə deyil, Ankara ilə də əlaqələr qurur, Zəngəzur dəhlizini uzun müddətə icarəyə götürmək, yəni ərazisini NATO ölkəsinə açmaq niyyətindədir. Belə olan halda Şimali Atlantika Alyansı Rusiya Federasiyasına yaxınlaşacaq - təkcə onun qərb sərhədlərində deyil, həm də Cənubi Qafqazda. Dəhliz ABŞ-ın nəzarətinə keçə bilər: Vaşinqton bu fürsəti Bakı ilə sülhün bağlanmasına kömək müqabilində İrəvana təklif edib. Gürcüstan həmişə NATO-ya üzv olmaq istəyirdi, amma heç vaxt alınmadı. Rusiya Federasiyası ilə iqtisadi əlaqələrini inkişaf etdirdiyi üçün bu ölkənin az qala rusiyapərəst olduğunu düşünmək yanlışdır. Necə ki, Gürcüstanın Rusiya sərhədlərində ikinci cəbhə açmağa qadir olmadığını düşünmək yanlışdır.

Bu günlərdə Gürcüstanın baş naziri İrakli Kobaxidze bildirib ki, Gürcüstanın Rusiya ilə münaqişəyə cəlb olunma təhlükəsi hələ də böyükdür, baxmayaraq ki, Tbilisi bunu istəmir. "Qlobal müharibə tərəfi Ukrayna məsələsini başdan-ayağa Avropanın boynuna asmaq üçün əlindən gələni edir, bir daşla iki quş vurmağa - eyni anda həm Avropanı, həm də Rusiyanı məhv etməyə çalışır", - Kobaxidze bildirib.

Postsovet məkanında baş verənlərlə bağlı tam təsəvvür yaratmaq üçün Cənubi Qafqaz ölkələri ilə birlikdə GUAM assosiasiyasının (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) bir hissəsi olan Moldovanı xatırlaya bilərik. Əvvəlcə Özbəkistan da strukturun bir hissəsi idi, lakin tezliklə onu tərk etdi. 20 ildən çox əvvəl GUAM xüsusi olaraq Rusiya ilə qarşı-qarşıya gəlmək üçün yaradılmışdı, amma nədənsə, işlər alınmadı. Göründüyü kimi, o zaman iştirakçılar hələ öz geosiyasi üstünlükləri barədə qərar verməmişdilər və assosiasiyanın işi əsasən xarici işlər nazirlikləri və dövlət başçıları səviyyəsində birgə görüşlərin keçirilməsi ilə məhdudlaşırdı. Amma bu gün GUAM daha fəallaşıb. Onun bütün üzvləri Rusiya Federasiyasının iştirakı ilə strukturları tərk edib və ya tərk edirlər.

MDB-ni çoxdan tərk edən, lakin Rusiya ilə iqtisadi əlaqələri bərpa edən Gürcüstan GUAM çərçivəsində görüşləri qaçırmır, "dördlüyün" bütün üzvləri ilə yaxşı münasibətlər saxlayır və Azərbaycanla əlaqələr xüsusilə sıxlaşır. Gürcüstanın baş naziri qeyd edib ki, Azərbaycan onun ölkəsi üçün "yalnız dəyərli dost deyil, həm də etibarlı tərəfdaş və qardaş ölkədir".

Bakı və Tbilisi ilə, lakin xüsusilə Kiyevlə də əlaqələri olan Kişinyov MDB-dən tədricən çıxdığını bəyan edib. Moldova neytral dövlət olsa da, NATO ilə əlaqələri gücləndirir. Prezident Maia Sandu sentyabrda keçiriləcək parlament seçkilərində hakim partiya qalib gələrsə, Şimali Atlantika Alyansına inteqrasiyaya mane olan statusdan imtina edəcəyinə söz verib. Ermənistan indi Rusiya Federasiyası üçün vacib olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına məhəl qoymur və MDB-dən çıxmasa da, onun bütün iclaslarında iştirak etmir. Moskva indiki vəziyyətdən ən az itki ilə necə çıxacağını anlamasa, GUAM əvvəllər güman edildiyini edəcək - özünü Ukraynadakı münaqişə tərəflərindən birinə qarşı çıxan ölkələrin birliyinə çevirəcək. Bu tərəf təbii ki, Rusiya olacaq.

***V.VƏLİYEV***

# Görmədiyimiz görünənlər...

Bəzən baxdığımız bir filmin, tamaşanın təsirindən həftələrlə çıxa bilmirik. Lakin səhnədə sadəcə aktyorları görürük, ssenari sadəcə aktyor oyunu ilə yaddaşımıza köçür. Bəzən bir kitabı başa vurur, qarşımıza çıxan yaxşı bir yazını nəfəs dərmədən oxuyur, bir rəsm əsəri qarşısında dəqiqələrlə dayanıb məna çalarları içində itib-batırıq, onların unudulmaz təsiri yaddaşımıza əbədi olaraq köçür. Baxdığımız film və tamaşaların, oxuduğumuz kitab və yazıların, sehrinə düşdüyümüz rəsmlərin çox halda sadəcə müəlliflərinin adını öyrənə bilirik. Düşüncələrini cümlələrə, misralara, rəsmlərə köçürən illərlə unuda bilmədiyimiz çoxsaylı insan var ki, biz bəlkə də bir ömür onların üzünü görmürük. Lakin həyatımıza bəxş etdikləri ilə onlar qəlbimizdə və ruhumuzda əlçatmaz bir yerdə olur.

Deməli, hər bir görünən yaxşı nə varsa, onun bir pərdə arxası da var. Orada sənin könlünü fəth edən bir yazıçı, şair, rəssam və kimlərsə... Eləcə də bir müəllim var. O pərdə arxasında görünməyənlərin "məhsuludur" gördüklərimizin hər biri.

Milli mətbuatımızın 150 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti adına layiq görülən Naxçıvan Dövlət Universitetinin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, həyatının 25 ilini jurnalistika təhsili üzrə pedaqoji fəaliyyətə həsr edən Şəhla xanım Şirəliyeva da bayaqdan bəri danışdığım tamaşa, film, rəsm əsəri, kitab, yazı və sair müəllifləri kimi pərdənin arxasında bizim görmədiklərimizdən, lakin heyran olduqlarımızdan biridir. Naxçıvan Muxtar Respublikasında onlarla jurnalistin yetişməsində əvəzsiz xidmətləri olan, onlarla tələbə-müəllim, tələbə-dost, tələbə-ana münasibəti qurmağı bacaran, məhz bu keyfiyyətlərinə görə hər zaman sevilən, dəyərləndirilən unudulmaz Şəhla müəllim.




Mən ali təhsilimi Naxçıvanda almamışam. Şəhla xanımla nə iş yoldaşı olmuşam, nə də rəfiqə. Lakin Naxçıvan kiçik bir şəhər olduğu üçün burada insanların bir-birini tanımaması mümkün deyil, xüsusilə də mətbuat adamlarının. Şəhla xanımla tez-tez mətbuatla bağlı tədbirlərdə iştirakımız yaxından olmasa da, qiyabi tanışçılığımıza səbəb olub. Sonralar qısa bir dövrdə-mən Ali Məclisdə işləyərkən dövlət qurumlarının mətbuat şöbələrinə işə qəbul üzrə komissiyanın üzvü kimi hərdən bir arada olurduq. Esse yazılarının oxunub qiymətləndirilməsində Şəhla xanımın həqiqətən Azərbaycan tarixinə və ədəbiyyatına dərindən yiyələndiyinin, ana dilimizin qrammatik və üslub qaydalarına böyük həssaslıqla yanaşdığını müşahidə etmişdim.

Niyə də olmasın ki?.. Şəhla xanım həyatını elmə, təhsilə verib. İllər onu əsl ziyalı kimi yetişdirib:1994-1998-ci illərdə NDU-nun Humanitar fakültəsində bakalavr, 1998-2000-ci illərdə həmin təhsil ocağında Azərbaycan ədəbiyyatı ixtisaslaşması üzrə magistr təhsili alıb. 2001-ci ildən NDU-nun aspirantura şöbəsində filologiya istiqaməti üzrə elmi fəaliyyətini davam etdirib. 2008-ci ildə " Naxçıvanda radio-televiziya və ədəbi mühit" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi qazanıb.

Və təbii ki, tək təhsil deyil, təcrübə də bir ziyalının yetişməsində əsas amillərdəndir. Şəhla xanım 2000-2002-ci illərdə NDU-nun Beynəlxalq Əlaqələr Şöbəsinin baş inspektoru kimi əmək fəaliyyətinə başlayıb. 2002-2004-cü illərdə Naxçıvan Təhsil İnformasiya Mərkəzinin koordinatoru, 2001-ci ildən NDU-nun "Jurnalistika və dünya ədəbiyyatı" kafedrasının müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olub. 2013-cü ildən "Jurnalistika və dünya ədəbiyyatı", 2018-ci ildən "Jurnalistika və kitabxanaçılıq", 2020-ci il tarixdən isə "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiridir.

Şəhla Şirəliyeva dəfələrlə ölkə səviyyəsində və Rusiya, Türkiyə Almaniya, İngiltərə, Fransa, Avstraliya, Macarıstan, İspaniya və sair kimi ölkələrdə keçirilən beynəlxalq seminar, simpozium və konfranslarda iştirak edib. Muxtar respublikanın da ictimai həyatında daim fəal iştirakı ilə seçilən ziyalı qadınlardandır.

30-dan çox elmi məqalənin, 2 monoqrafiyanın, 1 dərs vəsaitinin müəllifi olan Şəhla Şirəliyevanın dərs dediyi yüzlərlə tələbə məhz bu kitab və məqalələri əxz etməklə yetişib, muxtar respublikanın mətbuat aləminə qədəm qoyublar. Onların hər bir uğurunun arxasında müəllim kimi Şəhla xanımın əməyi, zəhməti dayanır. Tək uğurmu, xeyir. Şəhla xanım eşitdiyimə görə həm də tələbələri ilə dost, ana münasibəti quran bir müəllimdir. Qızların sirdaşı, oğlanların yolgöstərəni olan Şəhla xanım bəzən onların anası-məsləhətkeşi olub, bəzən tələbələrinin yaşına enib dostlarına, rəfiqələrinə çevrilib. Odur ki, hansı tələbəsindən onun haqqında soruşsan, xoş xatirələr bir-birini əvəz edib günlərlə davam edəcək söhbətin mövzusu ola bilər.

Şəhla xanımın Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti fəxri adına layiq görülməsini həm bir qadın, həm də həmkar kimi böyük sevinclə qarşıladım. Və özümə borc bildim deyim, qəlbimin diktəmi etdiyini deyim, bilmirəm, hansı səbəb oldusa, məni kompüter qarşısına əyləşib bu yazını yazmağa vadar etdi. Son cümlələrini yazdığım bu an düşünürəm ki, yaxşı ki, yazını yazmağa başlamışam. Axı yazmasam, olmaz. Həqiqətən də elə məsələlər var ki, ondan yazmasam, rahatlıq tapa bilmirəm. Eləcə də pərdənin arxa tərəfində olan, lakin milli mətbuatımıza onlarla tanınmış jurnalisti bəxş edən Şəhla xanımın bu sevincinə qatılmamaq olardımı? Əsla...

Təbrik edirəm sizi, Şəhla müəllimə. Yazının hər cümləsində o gülər üzünüz, ziyalı baxışlarınız, qayğıkeş ana, ləyaqətli həyat yoldaşı simanız gözlərim qarşısında canlanıb və mənə bu yazını yazmaq üçün anbaan ilham verib. Sizi sevənlərin, nə qədər dəyərli ziyalı olduğunuzu görənlərin hər biri daha yüksək təltiflərə layiq görülməyinizi arzulayır və inanır ki, qarşıdakı illərdə bu istəyi də gerçək olacaq.

***

Bəli, biz izlədiyimiz bir filmin, bir tamaşanın, dəqiqələrlə baxdığımız bir rəsmin, oxuduğumuz bir kitabın, yaxşı bir yazının pərdə arxasındakı müəllifi ilə hər zaman yaxından tanış olmağa çalışaq. Çünki pərdənin arxa tərəfindəkilər olmasa, nə bir film, nə bir rəsm əsəri, nə bir kitab, nə də bir yazı ola bilər. Orada Şəhla müəllim kimi həyatını jurnalist kadrların yetişməsinə həsr edən müəllimlər də var. Deməli, pərdənin arxa tərəfini görə bilək ki, digərləri kimi, oxuduğumuz yaxşı yazıların müəllifini yetişdirən müəllimləri də tanıyaq. Görmədiyimiz görünənlərin əməyini qiymətləndirməyə gəlincə, bu, bizim dəyərimizdir.

***Mətanət Məmmədova***

# Ənənədən gələcəyə: Valideyn olmağın yeni yolları

***Valideynlik, yalnız bir övlad böyütmək deyil, həm də bir fərdin, daha geniş anlamda isə bir cəmiyyətin formalaşmasında mühüm rola sahib sosial institutdur. Zaman keçdikcə həyat tərzi, texnologiya, təhsil, informasiya axını və sosial dəyərlər dəyişdiyi kimi valideynlik anlayışı da transformasiya edir. Bu dəyişiklik nəticəsində "ənənəvi valideynlik" və "müasir valideynlik" kimi iki fərqli model arasında müqayisə və ziddiyyətlər daha çox gündəmə gəlir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Ənənəvi valideynlik nədir?

Ənənəvi valideynlik modeli, illərlə formalaşmış ictimai və ailə strukturlarına əsaslanan, əsas hədəfi uşağın cəmiyyətin qoyduğu qaydalara uyğun şəkildə yetişdirilməsi olan yanaşmadır. Bu modeldə valideynin - xüsusən də atanın - avtoritet mövqeyi açıq şəkildə görünür. Tərbiyə prosesi ciddi nizam, tabeçilik, itaət, böyüyə hörmət və ailə qaydalarına uyğunlaşma üzərində qurulur.

## Ənənəvi valideynlikdə:







- Qayda-qanun pozulduqda cəza vasitəsi tətbiq olunur;
- Uşağın seçimi və fikirləri çox zaman nəzərə alınmır;
- Tərbiyə prosesi ailə nüfuzunu qorumaq və ictimai gözləntilərə uyğun şəkildə yönəldilir;
- Rol bölgüsü daha sərt şəkildə müəyyənləşdirilir (ata qəyyum, ana qayğıverən şəxs rolundadır).

Bu yanaşma uşağa məsuliyyət hissi, nizam-intizam və cəmiyyətə uyğunlaşma bacarığı qazandıra bilər. Lakin digər tərəfdən, sərbəst qərarvermə, emosional ifadə və fərdi sərhədlər mövzusunda məhdudiyyətlər yarada bilər.

## Müasir valideynlik nədir?

Müasir valideynlik modeli isə uşağı passiv tabe olan deyil, aktiv iştirakçı kimi qəbul edir. Bu yanaşmada əsas məqsəd uşağın psixoloji, emosional və sosial inkişafını dəstəkləmək, onun şəxsiyyətini sərbəst şəkildə formalaşdırmağa imkan yaratmaqdır. Əsas dəyərlər empatiya, qarşılıqlı dialoq, hörmət və uşağın hüquqlarına həssas yanaşmadır.

## Müasir valideynlikdə:

- Cəza əvəzinə səbəbləri izah etməyə və davranışın arxasındakı ehtiyacları anlamağa üstünlük verilir;
- Valideyn-övlad münasibəti qarşılıqlı anlaşma və etimada əsaslanır;
- Uşağın fərdi ehtiyacları və fərqlilikləri nəzərə alınır;
- Gender rolları və ənənəvi ailə modeli daha çevik və paylaşılmış olur.

Bu model uşağın özünəinamını, təşəbbüskarlığını və sosial uyğunlaşma qabiliyyətini inkişaf etdirməyə kömək etsə də, müəyyən hallarda sərhəd və məsuliyyət hissinin zəifləməsi ilə nəticələnə bilər - əgər balans düzgün qurulmasa.



## Azərbaycan reallığında vəziyyət

Azərbaycan cəmiyyəti keçid dövründə olan bir sistemə sahibdir. Bu səbəbdən bir çox ailələrdə hər iki modelin qarışığına rast gəlinir. Xüsusilə, nənə-babaların iştirak etdiyi geniş ailə sistemlərində ənənəvi yanaşma hələ də güclü təsir göstərir. Eyni zamanda urbanizasiya, internet və sosial media, müasir təhsil sistemi və psixoloji maarifləndirmə kimi faktorlar müasir valideynlik modelinin yayılmasına təkan verir.

Müasir ailələrdə daha çox "uşağın fikri nəzərə alınmalıdır" yanaşması görünsə də, ailədaxili avtoritet, sərt qaydalar və itaət tələb edən modellər də paralel şəkildə yaşamaqdadır. Bu da bir çox ailələrdə daxili ziddiyyətlərə və tərbiyə metodlarında qeyri-sabitliyə səbəb olur.

## Psixoloji baxış

Psixoloqlar hesab edirlər ki, tərbiyə sistemində ən uğurlu model "demokratik valideynlik" adlandırılan, yəni həm sərhədləri qoruyan, həm də uşağın fikrinə hörmət edən, qayğı və nəzarəti balanslaşdıran modeldir. Bu model həm ənənəvi, həm də müasir yanaşmanın üstün cəhətlərini özündə birləşdirir:

- Sərhədlər var, amma bu sərhədlər izah olunur və uşağa qəbul etdirilir;
- Uşağın fikri dinlənilir, amma valideyn onun inkişaf səviyyəsinə uyğun qərarlarda son söz sahibi olaraq qalır;
- Əlaqə emosional cəhətdən sıx, eyni zamanda davranış məsuliyyətli şəkildə yönləndirilir.

Valideynlik modeli seçim deyil, prosesdir. Hər bir ailənin sosial, mədəni, iqtisadi və emosional mühiti fərqli olduğu üçün, tam şəkildə "ənənəvi" və ya "müasir" modeli tətbiq etmək praktiki olaraq mümkün deyil. Əsas məqsəd - uşağın sağlam, balanslı, məsuliyyətli və emosional cəhətdən sabit bir şəxsiyyət kimi formalaşmasına şərait yaratmaqdır. Bunun üçün isə həm keçmişin sağlam dəyərlərindən, həm də müasir yanaşmaların üstünlüklərindən yararlanmaq zəruridir.

***Ayşən Vəli***

# Ermənistanda hakimiyyətlə kilsə arasında qarşıdurma güclənir

*Yevgeni Mixaylov: "Paşinyan seçkilərqabağı əsas müxalifət qüvvəsi kimi Erməni Apostol Kilsəsinin katolikosunu əvəz etmək üçün hər şeyi edəcək"*

***Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş nazirinin erməni apostol kilsəsinin katolikosu ilə mübarizəsinin nə ilə bağlı olduğunu izah edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Yevgeni Aleksandroviç, Ermənistandakı Erməni Apostol Kilsəsi ətrafında vəziyyət qızışır. Baş nazir Nikol Paşinyan Ümumdünya Erməni Konqresinin mənəvi mərkəzi olan Eçmiədzində mitinq elan edib və tərəfdarlarını buna hazırlaşmağa çağırıb. Bir neçə aydır ki, Paşinyan kilsəni tənqid edir və katolikosu subaylıq andını pozduğuna görə tutduğu vəzifədən istefa verməyə çağırır. Ermənistan hökumətinin hazırkı rəhbəri katolikosun istefasına nail olacağına əmindir. Bundan başqa, çevriliş cəhdi ilə bağlı kilsə xadimləri, o cümlədən tanınmış müxalifətçi Baqrat Qalstanyan saxlanılıb. Bütün bu prosesləri nə ilə əlaqələndirirsiniz?***







- Erməni Apostol Kilsəsi bu gün demək olar ki, respublikanın indiki hakimiyyətinə qarşı ən böyük və ən nüfuzlu müxalifət qüvvəsidir. Katolikos Paşinyanı ölkə üçün siyasi itkilərdə, o cümlədən Qarabağı itirməkdə ittiham edir. Katolikos "Qarabağ klanı"nın siyasi ideologiyasına sadiqdir.

Baş verənləri hansısa şəkildə obyektiv qiymətləndirmək üçün tarixi bağlılığı, ermənilərin öz kilsələrinə münasibətini nəzərə almaq lazımdır. Paşinyan anlayır ki, bu gün kilsə onun yeganə rəqibidir, ona sadiq olmayan, əvvəlki hakimiyyətin maraqlarını təmsil edən yeganə şəxs olaraq qalan katolikos başçılıq edir.

ÜEK əvvəlki iqtidarın son dayağına və ə orada vəziyyəti dəyişmək çox çətin işdir. Kilsə Paşinyanı getdikcə daha çox tənqid etməyə başlayıb, üstəlik, xatırladığımız kimi, Tavuş arxiyepiskopu Baqrat Qalstanyan ötən il hazırkı hökuməti devirmək üçün etiraz aksiyalarına rəhbərlik etmək missiyasını öz üzərinə götürüb. O, öz missiyasını yerinə yetirə bilmədi. Qalstanyan bu yaxınlarda İrəvanda dövlət çevrilişinə hazırlaşdığına görə həbs edilib.



Paşinyan istəyir ki, ölkədə bütün hakimiyyət ona məxsus olsun, respublikadakı vəziyyətə nəzarət edə bilsin və buna görə də onun məqsədi erməni apostol kilsəsinin başına öz "cib" katolikosunu qoymaqdır. Onun 2018-ci ildən Ermənistanın siyasi məkanını ardıcıl olaraq düşmənlərdən necə təmizlədiyini, Koçaryan və Sarkisyana qarşı məhkəmə proseslərini, Konstitusiya Məhkəməsini necə təmizlədiyini xatırlayırıq. Və məqsədinə çatdı. O, buna nail olub ki, hakimiyyətdə olduğu 7 il ərzində onu heç kim devirə bilməyib.

Görünən odur ki, kilsə ətrafında baş verən bütün bu qalmaqallar gələn il Ermənistanda parlament seçkilərinin keçirilməsi və ondan sonra baş nazirin təsdiqlənməsi ilə bağlıdır. Paşinyan isə özü üçün hər hansı neqativ nəticənin qarşısını almaq niyyətindədir. O, hakimiyyətdə olduğu illərdə həmişə buna nail olub.

Hadisələrin necə inkişaf edəcəyini hələlik söyləmək çətindir. O, böyük ehtimalla sudan quru çıxmağa və bəzi təxribatçı üsullarla vəziyyəti ifrat həddə çatdıraraq, daha böyük qalmaqala səbəb olan katolikosun çıxarılmasına nail olacaq. Biz görürük ki, kilsə ətrafındakı vəziyyət məsələsində də əhali kütləvi etirazlarla və katolikosu müdafiə edərək küçələrə çıxmır. Bu o deməkdir ki, onlar sadəcə yorğundurlar və sakit həyat, dəyişikliklər istəyirlər.

***-Ermənilər üçün Erməni Apostol Kilsəsi güclü ənənəvi qüvvədir, diasporada dəstəklənən bir bağdır və başqa şeylərdir. Və Paşinyan üçün kilsəyə meydan oxumaq çox ciddi, riskli addımdır. Əgər bu addımı atıbsa, deməli, onun arxasında bu məsələdə uğur qazanacağına mütləq zəmanət verən qüvvələr var...***

- Bu qüvvələr isə Qərbdir. Əbəs yerə deyil ki, Paşinyan bu yaxınlarda Brüsselə getdi, orada Avropa Şurasının rəhbəri Antonio Kosta və Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyenlə üçtərəfli görüş keçirdi. Danışıqlardan sonra Aİ-nin respublikaya yeni maliyyə vəsaiti ayırdığı açıqlanıb. Və görünən odur ki, Aİ funksionerləri Ermənistanın indiki baş nazirini respublikada keçiriləcək parlament seçkilərində ona ciddi dəstək veriləcəyinə inandırıblar. Və Ermənistanda "müstəqil media" adlandırılan qurumlar üçün Aİ tərəfindən vəsait ayrılıb, bu isə o deməkdir ki, Aİ sadəcə olaraq seçkilərdən əvvəl və seçkilər zamanı Paşinyan üçün faydalı olan informasiya fonunu maliyyələşdirəcək.

Biz görürük ki, demokratiyanın "tədqiqatçıları" olan Aİ Ermənistandakı kilsə ətrafında gedən proseslərlə bağlı heç vaxt heç nə dilə gətirməyib. Eynilə Makron Paşinyanın kilsədəki təmizləmələrini birbaşa dəstəkləyib. Ümumiləşdirsək, deyə bilərik ki, Ermənistanın indiki baş nazirinin indi gördüyü və dediyi hər şey onun qarşıdan gələn seçkilərdə qələbəsinə hesablanıb.

***Tərcümə- Elçin***

*AİB SƏDRİ AÇIQLADI*

# Kənd məhsullarına tələbatın yüksək olmasının səbəbi nədir?





"Azad İstehsalçılar Birliyi olaraq biz hesab edirik ki, kəndli öz təsərrüfatında yetişdirdiyi məhsulları birbaşa bazara çıxara bilməlidir. Hazırkı vəziyyətdə isə bu, müxtəlif inzibati və texniki baryerlərlə çətinləşdirilir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Eyyub Hüseynov sözlərinə belə davam edib: "Məlumdur ki, iri supermarket şəbəkələrinə məhsulun daxil olması üçün qida təhlükəsizliyi ilə bağlı sənədlər tələb olunur. Bu sənədlər olmadan heç bir məhsul bu şəbəkələrə qəbul edilmir. Bənzər yanaşma meyvə dükanlarında da müşahidə olunur. Adətən, meyvə məhsulları topdansatış bazarlarından alınır. Bu bazarlarda isə məhsulların ilkin istehsalçısı deyil, alverçilər, yəni üçüncü şəxslər iştirak edir və məhsullar onların vasitəsilə satış nöqtələrinə çatdırılır.

Lakin bəzi ara dükanlar, məhlə dükanları və kiçik bazarlar kəndlinin birbaşa məhsul satışı üçün imkan yaradır. Biz belə alternativ satış kanallarının mövcudluğunu dəstəkləyirik, lakin burada əsas məsələ məhsulların təhlükəsizliyinin təmin olunmasıdır. Təəssüf ki, bazarda yalnış etiketləmə və aldatmalar geniş yayılmışdır. "Nənəmin nehrəsi", "nənəmin təndiri" kimi nostalji və etibarlı çağırışlar altında satılan məhsulların tərkibi çox vaxt istehlakçının gözləntilərini qarşılamır. Belə hallar qida təhlükəsizliyi baxımından ciddi narahatlıq doğurur.

Müasir dövrdə insanlar ekoloji təmiz və kənd mənşəli məhsullara üstünlük verirlər: kənd toyuğu, kənd yumurtası, kənd südü, hətta "kənd qızı" ifadəsi belə son illərdə dəbə çevrilib. Məlum olduğu kimi, toyuqlar üç kateqoriyaya bölünür: Azad gəzən toyuqlar, Yarı azad saxlanılan toyuqlar, Broyler toyuqları.

İstehlakçılar, əsasən, birinci qrupa aid toyuqların məhsullarına üstünlük verirlər. Onlar bu məhsulları həm daha sağlam, həm də ekoloji cəhətdən təmiz hesab edirlər.

Azərbaycan Respublikasında 15 il əvvəl "Ekoloji Təmiz Kənd Təsərrüfatı Haqqında Qanun" qəbul edilsə də, onun tam tətbiqi baş tutmamışdır. Həmin qanunun icrası üçün vacib olan standartlar və nəzarət mexanizmləri formalaşdırılmadığı üçün bu sahədə irəliləyiş zəif olub. Lakin son zamanlar bu mövzu yenidən gündəmə gətirilmişdir və artıq parlamentin Aqrar siyasət komitəsi tərəfindən də dəstəklənməkdədir.

Əgər ekoloji təmiz məhsullar üçün müəyyən edilmiş standartlar tətbiq olunarsa və Qida Təhlükəsizliyi Agentliyi bu məhsulların təhlükəsizliyini sürətli və bürokratiyasız şəkildə təmin edə bilsə, həm fermerlər, həm də istehlakçılar üçün faydalı mühit yaranar.

Qeyd edilməlidir ki, bazarda bəzən saxta məhsullar və etiketlər də təqdim olunur. Məsələn, üzərində "kənd qaymağı" yazılan məhsulların real tərkibi qaymaqla heç bir əlaqəsi olmur. Bu isə istehlakçının aldadılmasına gətirib çıxarır.

Eyni hal "İvanovka mağazaları" adı altında fəaliyyət göstərən satış şəbəkələrində də müşahidə olunur. Rəsmi olaraq ölkədə yalnız 3 belə mağaza olsa da, Bakı şəhərində onlarla bu adda mağaza fəaliyyət göstərir və çox zaman bu brenddən istifadə edərək istehlakçının etibarından sui-istifadə olunur.

Nəticə və Tövsiyələr:

* Kəndlinin birbaşa bazara çıxış imkanı genişləndirilməlidir.

* Ekoloji təmiz məhsullar üçün standartlar müəyyən edilməli və tətbiq olunmalıdır.

* Qida Təhlükəsizliyi Agentliyi bu məhsulları yoxlarkən bürokratik əngəllər yaratmamalıdır.

* Aldadıcı etiketləmə və saxta məhsulların qarşısı alınmalıdır.

* İstehlakçı maarifləndirilməli, hansı məhsulun nə mənşəli olduğu barədə aydın məlumat almalıdır".

***Ayşən Vəli***

# Media çirkli informasiyadan necə xilas edilməli?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi " istiqaməti çərçivəsində hazırlanıb*

***Məlumat çirkliliyi çaşdırıcı, natamam və ya manipulyasiya xarakterli məlumatların geniş yayılması deməkdir. Sosial şəbəkələrdə, xəbər saytlarında və digər platformalarda əsli olmayan məlumatların sürətlə yayılması insanları məlumat çirkliliyinə məruz qoyur.***



Məlumat çirkliliyini yaradan əsas səbəblərdən biri həddindən artıq informasiyanın olmasıdır. Sosial şəbəkələr, xəbər saytları, bloqlar və digər platformalarda eyni anda çoxlu məlumat axınının olması bu çirkliliyə yol açan əsas amildir. Dezinformasiya, qəsdən və ya bilmədən yayılan yalan və ya səhv məlumatlar məlumat çirkliliyinə yol



açır. Həmçinin, lazımsız, təkrarlanan, faydalı olmayan, məqsədsiz məlumatlar da xəbər bazarında bolluq yaradır və məlumat çirkliliyinə səbəb olur. Son illər informasiya çirkliliyini yaradan ən başlıca səbəblərdən biri də sosial şəbəkələrin alqoritmləridir, belə ki platformaların diqqət çəkməyə çalışan başlıqlar və sensasiyalara üstünlük verməsi məlumat çirkliliyi yarada bilir. O cümlədən, feyk xəbərlər və manipulyasiya da ictimai rəyə təsir etmək məqsədilə hazırlanmış saxta məlumatlardır ki, informasiya çirkliliyi üçün münbit bazardır.

İnformasiya çirkliliyi yaranan cəmiyyətdə doğru məlumatla yalanı ayırd etmək zamanla çətinləşir. O qədər dezinformasiya yayılır ki, inanmaq, qərar vermək kimi proseslər zəifləyir. Xüsusilə səhiyyə, siyasət və iqtisadi sahələrdə olan məlumat çirkliliyi insanlarda çaşqınlıq yaradır. Bu da öz növbəsində etibarsızlıq və informasiya yorğunluğu yaradır, nəticədə panika meydana çıxır. Xatırlayın, pandemiya dövründə çörək və unla bağlı yayılan dezinformasiyalar mağazalarda hansı bashabaslara, qarışıqlıqlara səbəb olurdu. Eləcə də 44 günlük müharibə zamanı bəzi sosial şəbəkə istifadəçiləri yayılması yasaqlı hərbi məlumatları, yaxud da yalan informasiyaları paylaşaraq ictimaiyyətdə iğtişaşlara və narahatlığa yol açırdılar. İnformasiya çirkliliyi belə-belə yaranır.



Hazırda dünyada informasiya çirkliliyi ciddi problem kimi qəbul edilir, xüsusilə rəqəmsal texnologiyaların, sosial medianın, son olaraq süni intellektin sürətli inkişafı ilə doğru informasiya məsələsi qlobal səviyyədə ciddi problemə çevrilib. Sosial şəbəkələrdəki paylaşım azadlığı, istifadəçilərin öz səhifələrində sərbəst məlumat yayması, mənbə təsdiq edilmədən paylaşmaları cəmiyyətdə xaotik vəziyyətə səbəb olur. Sosial şəbəkə platformalarının alqoritm tətbiqi isə ayrı bir problemdir. Çünki istifadəçinin bir dəfə maraq göstərdiyi tərkib artıq onun alqoritminə çevrilir, davamlı olaraq həmin tərkibdə kontentlərlə qarşılaşır. Bu da öz növbəsində informasiya boşluğu yaradır.

O cümlədən saytların, xəbər portallarının daha çox baxış və gəlir üçün əl atdığı yollardan biri də sensasiyalı, aldadıcı, cəlbedici başlıqlarla yanlış və ya şişirdilmiş məlumatlardır. Başlıqla xəbərin mətni arasında vəhdəd olmayan məlumatlar həm dünya mediasında, həm də yerli mediada ciddi problemlərə səbəb olur. Avtomatik sistemlərlə - botlarla saxta məlumatların yayılması da informasiya çirkliliyinə yol açan əsas problemlərdən biridir.



Əslsiz xəbərlərlə yaradılan informasiya çirkliliyi cəmiyyətin dezinformasiyaya inanmasına səbəb olur, çirkli xəbərlər vasitəsilə ictimai rəyə təsir edilir, fərdi düşüncələrə müdaxilə baş verir, süni formada nifrət və ya dəstək ritorikası yaradılır. Bir kontent bir anda ya linç edilə bilir, ya da dəstək yağışına tutulur. İnsanlar çirkli informasiyanın küyünə gedir, desək, doğru ifadə etmiş olarıq.



İnformasiya çirkliliyində cəmiyyətə son zərbəni də süni intellekt (Sİ) vurdu. Onun yaradılması və inkişafı informasiya texnologiyalarında inqilabi dəyişikliklər etsə də, daha çox informasiya çirkliliyinin artmasında rol oynadı. Peşəkarların işinə yaramasından çox oyunbazların oyuncağına çevrilən Sİ ciddi çaşqınlıqlar yaratdı. ChatGPT, Claude, Bard və s. platformalar vasitəsi ilə istənilən insan əsli olmayan xəbər, sosial media postu və ya bloq yazısı yaradaraq paylaşır, insanları olmayan məlumatlara inandırır, informasiya çirkliliyi yaradır. İstifadəçilər bu texnologiyanı inkişaf və faydalı işlər üçün yox, saxta, əsilsiz, bəzən də təhlükəli xəbərlər və manipulyativ məzmunlar yaratmaq və yaymaq üçün istifadə etdilər.

Deepfake (saxta məlumatlar) texnologiyası Sİ-ə imkan verdi ki, real görünən, amma əsli olmayan saxta video və səs yazıları yaratsın və paylaşmağa imkan versin. Bu texnologiya süni intellekt vasitəsilə foto, video və səsi istədiyin kimi idarə etməyə imkan verir. Məsələn, bir şəxsin üz ifadələri və mimikasını başqa bir videodakı adama yerləşdirirlər, səsini saxtalaşdıraraq demədiyi sözləri o deyirmiş kimi göstərirlər. Nəticə etibarı ilə real görünən, amma saxta materiallar yaranır, bir-biri ilə əlbəyaxa dalaşan prezidentlər, bir ölkənin digərinə ultimatumu, məşhur adamların müraciəti kimi görüntülər informasiya bazarında məlumat çirkliliyinə səbəb olur.

Sİ vasitəsi ilə bu gün ortaya çıxan ən böyük problemlərdən biri də şantajdır. Belə ki, xüsusilə qadınların görüntüsünü pornoqrafiq formada montaj edərək qarşı tərəfi şantaj edənlər olur. Bu texnologiya vasitəsi ilə bank kartlarından pul oğurlamaq məsələsi də geniş yayılmış fırıldaqçılıq növüdür. Sizə ailə üzvünüzün nömrəsi ilə zəng edərək onun səsi ilə danışırlar və siz bunun fərqində olmursunuz. Nəticədə özünüz könüllü hesabınızdan pul göndərirsiniz.

İnformasiya çirkliliyindən qorunmaq, səhih məlumata çıxış əldə etmək üçün oxucunun media savadlılığı olmalıdır. Media savadlılığı olan oxucu rəsmi, etibarlı və peşəkar mənbələrə üstünlük verir, məlumatın doğruluğuna şübhə edilməyən mənbələrə baş çəkir. İnformasiyanın doğruluğunu başlıq təyin etmir, ona görə də oxucu yalnız xəbərin başlığına əsaslanmamalıdır, məzmunu dəqiqliklə oxumalıdır. Qarşısına çıxan informasiyaların tarixinə diqqət etməyənlər daha çox məlumat çirkliliyinə məruz qalır. Çünki bir çox hallarda baxış sayı qazana bilmək üçün saytlar və sosial şəbəkə səhifələri köhnə xəbərləri yeni kimi təqdim edir. Oxucu oxuduğu informasiyaya hər hansı emosional reaksiya göstərməzdən əvvəl o məlumatın doğruluğuna əmin olmalıdır: onu qorxudan, təəccübləndirən, sevindirən, narahat edən informasiya nə qədər doğrudur?

**_Lalə Mehralı_**

SON SƏHİFƏ
SƏS
24 iyul
2025-ci il

# Bu gün 41 dərəcə isti olacaq



**Bakıda və Abşeron yarımadasında İyulun 24-də hava şətaitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 34-38° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunu, nisbi rütubət gecə 70-80%, gündüz 45-55% təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28° isti, gündüz 36-41° isti dağlarda gecə 13-18° isti, gündüz 25-30° isti olacaq.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Gəncədə iki qardaş bıçaqlanıb



Gəncədə bıçaqlanma hadisəsi baş verib. Belə ki, 1993-cü il təvəllüdlü V.Qazıyev və onun qardaşı - 1999-cu il təvəllüdlü D.Qazıyev mübahisə zəminində bıçaq xəsarəti alıblar. Onlar xəstəxanaya aparılıb, vəziyyətləri kafi qiymətləndirilir. Onları bıçaqlamaqda şübhəli bilinən, 2001-ci il təvəllüdlü F.Qurbanov isə hadisə yerindən qaçıb.

Hadisənin başvermə səbəbləri hələ məlum deyil. Hazırda hadisəni törətməkdə şübhəli bilinən şəxsin saxlanılması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir. Faktla bağlı araşdırma aparılır.



## "İnter"də xoşbəxtəm - Hakan Çalhanoğlu

"İnter"in yarımmüdafiəçisi Hakan Çalhanoğlu klubdan ayrılacağı barədə məlumatlara münasibət bildirib. QOL.az xəbər verir ki, Türkiyə millisinin üzvü Milan təmsilçisində xoşbəxt olduğunu və başqa komandaya keçməyəcəyini deyib: "İnter"də xoşbəxtəm və həmişə qalmaq istədiyimi demişəm. Hər şeyə yenidən başlamağa hazıram. Məqsədim burada, bu klubla titullar qazanmaqdır. Komanda yoldaşım taro Martinezlə birlikdə oynamağa hazırıq".

## BMT həyəcan təbili çalır - quraqlıq bəşəriyyəti təhdid edir!

***BMT-nin dəstəyi ilə İqlim dəyişikliyinə dair yeni hesabat hazırlanır. Hesabatda qeyd edilir ki, "Dünyada quraqlıq ocaqları, 2023-2025-ci illər" adlı sənəd quraqlığın yoxsulluğu, aclığı, enerji dayanıqsızlığını və ekosistemlərin deqradasiyasını necə sürətləndirdiyini əhatəli təhlil edir.***

İqlim dəyişikliyi və artan torpaq-su yüklənməsi səbəbindən 2023-cü ildən etibarən müşahidələr tarixində ən genişmiqyaslı və dağıdıcı quraqlıqlar baş verir.



Hesabatda qeyd edilir ki, quraqlıqdan ən çox uşaq və qadınlar zərər çəkir, vəba epidemiyaları kəskin artır.

"Quraqlıq - səssiz qatildir. O, sezilmədən yaxınlaşır, resursları tükədir və həyatları yavaş templə dağıdır. Onun izləri uzun müddət qalır", - deyə BMT-nin Səhralaşma ilə Mübarizə Konvensiyası Katibliyinin rəhbəri İbrahim Tiahu bildirib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**